İnklüziya üzrə müəllim hazırlığı

# İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ

TE4I

Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi

İnklüziya üzrə müəllim hazırlığı

# İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ

**Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi**

Lifelong Learning Programme
Education and Culture DG

Bu nəşr Avropa Komissiyasının Təhsil və Mədəniyyət üzrə Baş Direktorluğunun dəstəyi ilə hazırlanmışdır: http://ec.europa.eu/dgs/education_culture/index_en.htm

Bu nəşrdə ifadə olunan fikirlər yalnız müəlliflərə aiddir və Komissiya bu nəşrdə əks olunan məlumatların hər hansı şəkildə istifadəsinə görə məsuliyyət daşımır.

Redaktə edənlər: Amanda Uotkins, əməkdaş, Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi

Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi (Agentlik) bu sənədin hazırlanmasında Agentliyin İdarə heyətinin bütün üzvlərinin və Milli Koordinatorların, eləcə də aşağıdakı şəxslərə verdikləri töfhəni məmnunluqla qeyd edir:

- TE4I Layihəsinin Məsləhət Qrupunun üzvləri və İnklüziya Layihəsi üzrə Müəllim hazırlığında iştirak edən ölkə üzrə hər bir təyin edilmiş ekspert. Onların əlaqə məlumatları bu sənədin sonunda verilmişdir;
- 2010-2011-ci illər ərzində 14 ölkədə tanışlıq səfərlərində iştirak etmiş siyasəti müəyyən edən şəxslər, tələbələr, təhsilalanlar və onların ailələri. Bütün ölkələrə edilən tanışlıq səfərlərinə dair ətraflı məlumatlar TE4I layihəsinin veb səhifəsində verilmişdir: http://www.european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion/country-study-visits

Bu sənəddən çıxarışlara yalnız o halda icazə verilir ki, mənbəyə aydın şəkildə istinad edilsin. Bu sənədə aşağıdakı şəkildə istinad edilməlidir: Xüsusi Təhsilin İnkişafı üzrə Avropa Agentliyi (2012) İnklüziv Müəllimlərin Profili, Odense, Danimarka: Xüsusi Təhsilin İnkişafına üzrə Avropa Agentliyi.

Bu sənədi müşayiət edən əlyazma müəllif hüququ olmayan material kimi hazırlanmışdır. Sənədin əslinə istinad edilmək şərtilə həmin sənəddə uyğunlaşdırma və modifikasiya aparıla və məqsədi təkrar müəyyən edilə bilər.

Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi ilə “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində tərcümə edilmiş və nəşr olunmuşdur.

Bu vəsaitin azərbaycan versiyası onlayn istifadəyə açıqdır
*https://inkluzivtehsil.az/library*

**© Xüsusi Təhsilin İnkişafı üzrə Avropa Agentliyi 2012**

Katiblik
Østre Stationsvej 33
DK-5000 Odense C Danimarka
Tel: +45 64 41 00 20
secretariat@european-agency.org

Brüssel Ofisi
3 Avenue Palmerston
BE-1000 Brüssel Belçika
Tel: +32 2 280 33 59
brussels.office@european-agency.org

**www.european-agency.org**

# MÜNDƏRİCAT

**ÖN SÖZ** 5
**QISA XÜLASƏ** 6
**GİRİŞ** 8
**İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ** 10
**İNKLÜZİV MÜƏLLİMLƏRLİN PROFİLİNİN TƏTBİQİ** 18
Ümumi prinsiplər 18
Profildən istifadə 18
Profilin tətbiqini dəstəkləyən amillər 19
**PROFİL ÜÇÜN KONSEPTUAL BAZA** 24
İnklüziv təhsilə dəyərlər əsasında yanaşma 24
Səriştə sahələri müəyyən edilmiş yanaşma kimi 26
Məktəb və müəllim hazırlığı üçün Avropa siyasətinin prioritetlərinə keçid 27
**PROFİLİ TƏKMİLLƏŞDİRMƏK ÜÇÜN METODOLOGİYA** 30
**PROFİLİN GƏLƏCƏKDƏ TƏKMİLLƏŞDİRİLMƏSİ** 34
**İSTİNADLAR** 36
**ƏLAVƏ 1 – ÖLKƏLƏRDƏ İPT ÇƏRÇİVƏSİNDƏ BACARIQLARDAN İSTİFADƏ** 38
**ƏLAVƏ 2 – MÜƏLLİMLƏRİN KEYFİYYƏTİNİN ARTIRILMASI: AVROPA BİRLİYİNİN SİYASƏT GÜNDƏLİYİ** 40
**ƏLAVƏ 3 – PROFİL SƏNƏDİNİN MÜZAKİRƏLƏRİ: İNFORMASİYA TOPLAMAQ ÜÇÜN ŞABLON FORMA** 42
**TÖHFƏ VERƏN ŞƏXSLƏRİN SİYAHISI** 43

İNKLÜZİYA ÜZRƏ MÜƏLLİM HAZIRLIĞI

# İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ

# ÖN SÖZ

İnklüziya üzrə müəllim hazırlığı layihəsi bütün müəllimlərin "inklüziv" olmaq üçün ilkin pedaqoji hazırlıq vasitəsilə necə hazırlandığını araşdırmışdır. Üç illik layihə mövzudan, ixtisasdan yaxud tədris edəcəkləri yaşdan və ya işləyəcəkləri məktəbdən asılı olmayaraq müəllimlik peşəsinə qədəm qoyan hər kəsin ehtiyacı olduğu əsas bilik və bacarıqları, anlayışları, münasibət və dəyərləri müəyyən etmək üçün tərtib olunmuşdur.

Layihəyə 25 ölkədən 55 ekspert cəlb edilmişdir: Avstriya, Belçika (flaman və fransızca danışan icmalar), Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Macarıstan, İslandiya, İrlandiya, Latviya, Litva, Lüksemburq, Malta, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Birləşmiş Krallıq (İngiltərə, Şimali İrlandiya, Şotlandiya və Uels). Ekspert qrupuna siyasəti müəyyən edən şəxslər – müəllim hazırlığı və inklüziv təhsil üzrə məsul olanlar, o cümlədən həm ümumi, həm də konkret sahə üzrə ixtisaslaşmış müəllimlər daxil edilmişdir.

Layihəyə Agentliyin İdarə heyəti üzvlərindən ibarət Layihə Məsləhət Qrupu və Milli Koordinatorlar, Agentliyin heyəti və Norveçdən olan xarici konsultant Kari Nes tərəfindən dəstək verilmişdir. Layihənin Məsləhət Qrupu layihə müddətində bu sahədə digər Avropa və beynəlxalq təşəbbüslər ilə uyğunluğu təmin etmək məqsədilə genişləndirilmiş tərkibdə Avropa Komissiyasının Təhsil və Mədəniyyət üzrə Baş Direktorluğu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Təhsil Tədqiqatları (İƏİT) və İnnovasiyalar üzrə Mərkəzi və YUNESKO-nun Beynəlxalq Təhsil Bürosu ilə görüşlər keçirmişdir.

TE4I layihəsi bir sıra nəticələrə gətirib çıxarmışdır. Bu nəticələr haqqında məlumatları layihənin aşağıdakı veb səhifədən əldə etmək olar: http://www.european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion

- 2000-ci ildən etibarən beynəlxalq siyasət sənədlərini və tədqiqat ədəbiyyatını əhatə edən siyasət və tədqiqat ədəbiyyatı təhlilləri, o cümlədən 18 Avropa ölkəsindən tədqiqat materialları;
- İştirakçı ölkələrdən inklüziya üzrə müəllim hazırlığı barədə hesabatlar. Ölkə hesabatları, spesifik mövzular üzrə ölkələr arasında axtarış etməyə imkan verən ardıcıl formatda təqdim olunur;
- Avropada müəllim hazırlığı ilə bağlı əsas tapıntı və tövsiyələri təqdim etmək məqsədilə layihə məlumatlarının bütün mənbələrini özündə əks etdirən analitik hesabat;
- Avropada müəllim hazırlığı ilə bağlı əsas nəticələr və tövsiyələri təqdim etmək üçün layihə məlumatlarının bütün mənbələrinə dair bir sintez hesabat:
- Layihə fəaliyyətlərindən sübutları layihənin analitik hesabatına edilmiş tövsiyələr ilə birbaşa bağlayan "matriks" sənədi.

Növbəti nəticə tədqiqatlar, ölkə haqqında məlumatlar və xüsusilə də 2010 və 2011-ci illərdə 14 ölkəyə təşkil edilmiş tanışlıq səfəri zamanı müəllim hazırlığı üzrə layihə ekspertləri və maraqlı qrupların nümayəndələri ilə aparılmış müzakirələr zamanı hazırlanmış *İnklüziv Müəllimlərin Profilinə* dair sənəddir.

Ölkə üzrə təyin edilmiş mütəxəssislərə əlavə olaraq, 400-dən çox digər maraqlı tərəflər – o cümlədən ilkin pedaqoji təhsilalan tələbələr, müəllimlər və məktəb rəhbərləri, yerli özünüidarəetmə orqanları, könüllü təşkillatların nümayəndələri, siyasəti müəyyən edənlər, şagirdlər, onların valideynləri və ailələri layihə fəaliyyətlərinə cəlb edilmişdir. Agentlik layihə nəticələrinin əldə edilməsində verdiyi töhfələrə, xüsusilə də bu sənəddə təqdim edilmiş Profilin hazırlanmasına görə onlara təşəkkür edir.

**Cor Meijer**<br>
Direktor<br>
*Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi Xüsusi*

# QISA XÜLASƏ

TE4I layihəsi bütün müəllimlərin ilkin pedaqoji təhsil vasitəsilə necə "inklüziv" olmaq üçün hazırlandıqlarını müəyyən etmişdir. Üç illik layihə mövzudan, ixtisasından yaxud yaşından və ya işlədikləri məktəbdən asılı olmayaraq müəllimlik peşəsinə başlayan hər kəs üçün zəruri olan əsas bilikləri, bacarıqları və anlayışları, münasibət və dəyərləri müəyyən edir.

*İnklüziv Müəllimlərin Profili* tərəfindən həyata keçirilən "İnklüziya üzrə müəllim hazırlığı" layihəsinin əsas nəticələrindən biridir. Agentliyin ölkə üzrə müətəxəssislərindən daxil olan spesifik müraciət inklüziv mühitdə işləyən bütün müəllimlər üçün tələb olunan zəruri bacarıq, münasibət və biliklərə dair konkret məlumatlarla bağlı olmuşdur. Bu sənəd birbaşa həmin müraciətə cavabı özündə əks etdirir.

Profil üçün əsas hədəf auditoriyaları müəllim hazırlığı üzrə siyasətə təsir göstərmək və dəyişiklikləri həyata keçirmək gücündə olan şəxslərdir: müəllimlər (tədrisi aparanlar) və qərar qəbul edənlər – İlkin pedaqoji təhsil (İPT) üzrə menecer və siyasəti müəyyən edənlərdir. İPT üzrə bu maraqlı tərəflər hədəf auditoriya kimi vacib hesab edilir, çünki TE4I layihəsinin əsas ideyası ondan ibarətdir ki, müəllim hazırlığı inklüziv təhsil üçün tələb olunan daha geniş sistemli dəyişikliklər üçün əsas təsir nöqtəsidir.

Profil ölkələrdə artıq həyata keçirilmiş işləri təkrarlamır. Əksinə, sənəd ölkə nümayəndələri tərəfindən qeyd olunan ortaq narahatlıqları realist şəkildə həll etməyə, milli səviyyədə təqdim edilən məlumat və töhfələr əsasında ümumavropa səviyyəli alətin hazırlanmasına çalışır.

Əsas etibarilə, *İnklüziv Müəllimlərin Profili* bütün müəllimlər üçün İPT proqramlarının tərtib olunması və tətbiqində bələdçi kimi işlənib hazırlanmışdır. Məqsəd odur ki, Profil sadəcə İPT proqramının məzmununa dair mətn kimi deyil, müvafiq kontentin müəyyən edilməsində, metodların planlaşdırılmasında, və İPT üçün arzu olunan təlim nəticələrinin müəyyənləşdirilməsində stimullaşdırıcı material kimi nəzərdən keçirilsin.

Spesifik olaraq, bu Profil sənədi üçün məqsədlər aşağıdakılardan ibarətdir:

1. İlkin pedaqoji hazırlıq proqramında tətbiq oluna biləcək əsas dəyər və bacarıqların çərçivəsinin müəyyən edilməsi;

2. Müxtəlifliyin bütün formalarını nəzərə alan inklüziv tədris aparmaq məqsədilə bütün müəllimlərin hazırlanması ilə bağlı əsas dəyərlərin və bacarıqların vurğulanması;

3. Bütün İPT proqramları çərçivəsində İnklüziv təhsil üçün təklif olunan əsas dəyər və səlahiyyət sahələrinin tətbiqini dəstəkləyən əsas faktorların vurğulanması;

4. İnklüziv təhsilin TE4I layihəsi çərçivəsində bütün müəllimlərin məsuliyyəti olması, eləcə də bütün müəllimlərin inklüziv mühitdə hazırlanmasının İPT proqramlarında çalışan bütün pedaqoqların məsuliyyəti olması ilə bağlı bütün arqumentlərin gücləndirilməsi.

Profil sənədində üçillik müddət ərzində təhsil sahəsi üzrə layihə ekspertlərini və 400-dən çox maraqlı tərəfləri – siyasəti müəyyən edənlər və müxtəlif məktəb və müəllim hazırlığı sektorlarından olan peşəkarları; İPT və müəllimlər; valideyn, ailələr və tələbələri - əhatə edən müxtəlif fəaliyyət və müzakirələrdən istifadə olunur.

Profil sənədinin hazırlanmasında aşağıdakı üç parametrdən istifadə olunmuşdur:

1.İnklüziya bir sıra əsas dəyərlər əsasında təhsilə prinsipial, hüquqa əsaslanan yanaşmanı əhatə edir;

2. İnklüziv təhsildə diqqətin təlimlə bağlı təcrid olunmuş bacarıqlara yönəldilməsində praktiki və konseptual çətinliklər vardır və Profilin müxtəlif ölkələr və maraqlı tərəflərə müvafiq olması üçün

səlahiyyətlərdən istifadəyə daha geniş yanaşmanın tətbiqinə ehtiyac vardır;

3. Ayrı-ayrı ölkələr daxilində sosial siyasətlərin siyasi prioritetləri və təsirləri nəzərə alınmaya bilməz, lakin bütün ölkələrin abunə olduğu və Aİ və beynəlxalq səviyyəsində siyasət bazası inklüziv təhsilə və müəllimlərin tədrisinə təsir edir.

Tədris və təlimlə bağlı dörd əsas dəyər inklüziv təhsildə bütün müəllimlərin işi üçün baza kimi müəyyən edilmişdir. Bu əsas dəyərlər müəllimlərin bacarıq sahələri ilə assosiasiya olunur. Səriştə sahələri üç elementdən ibarətdir: münasibətlər, bilik və bacarıqlar. Müəyyən yanaşma yaxud inanclar praktikada tətbiq üçün müəyyən bilik yaxud anlayış və bacarıqlar tələb edir. Bütün bu müəyyən edilmiş bacarıq sahələri üçün onları daha da gücləndirən əsas biliklər və bacarıqlar təqdim edilir.

Profil bu əsas dəyərlər və səlahiyyət sahələri üzrə işlənib hazırlanmışdır:

**Təhsilalanların müxtəlifliyinin qiymətləndirilməsi** – təhsilalanların müxtəlifliyi resurs və təhsil üçün üstünlük kimi nəzərdə tutulur. Bu əsas dəyər daxilində səriştə sahələri aşağıdakılara aiddir:
- İnklüziv təhsilin konsepsiyası;
- Təhsilalanların fərqli olması ilə bağlı müəllimlərin baxışı.

**Bütün təhsilalanların dəstəklənməsi** – müəllimlər bütün təhsilalanların nailiyyətləri ilə bağlı yüksək gözləntilərə malik olurlar. Bu əsas dəyər çərçivəsində əsas bacarıqlar aşağıdakılarla bağlıdır:
- Bütün şagirdlər üçün akademik, praktiki, sosial və emosional təlimin təşviqi.
- Heterogen (müxtəlif) siniflərdə effektiv tədris yanaşmalarının tətbiqi.

**Başqaları ilə birgə iş** – əməkdaşlıq və komanda işi bütün müəllimlər üçün əsas yanaşmadır. Bu dəyərlə bağlı əsas bacarıqlar aşağıdakıları əhatə edir:
- Valideynlər və ailələrlə işləmək
- Təhsil sahəsində digər peşəkarlarla işləmək.

**Fərdi peşəkarlığın artırılması** – tədris öyrənmə fəaliyyətidir və müəllimlər ömürboyu öyrənmə məsuliyyətini üzərlərinə götürürlər. Bu dəyərlə bağlı əsas bacarıqlar aşağıdakılardan ibarətdir:
- Müəllimlərin öyrənməyi praktikada özləri də həyata keçirməklə digərlərinə nümunə olması;
- İlkin pedaqoji təhsil peşəkarlığının davamlı olaraq artırılması üçün əsas rol oynaması:

Əsas dəyərlərin və bacarıqların daha da gücləndirilməsi Profilin tətbiqi ilə bağlı bir sıra razılışdırlmış ümumi prinsiplərdən irəli gəlir. Bundan əlavə, Profilin tətbiqini dəstəkləyən bir sıra faktorlar müəyyən edilə bilər. Bu faktorlar İlkin pedaqoji təhsil proqramları çərçivəsində yalnız Profildən mümkün istifadəni deyil, eyni zamanda məktəblərdə və müəllimlərin tədrisində siyasət və praktika ilə bağlı daha geniş məsələləri əhatə edir.

# GİRİŞ

*İnklüziv Müəllimlərin Profili* sənədi Agentlik tərəfindən həyata keçirilən (TE4I) layihəsinin (http://www.european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion) əsas nəticələrindən biri kimi işlənib hazırlanmışdır. Bu 3 illik layihə çərçivəsində – 25 Avropa ölkəsindən 55 milli eksperti əhatə etmişdir – aşağıdakı məsələlər nəzərdən keçirilmişdir:

- 21-ci əsr məktəbində inklüziv cəmiyyət üçün hansı növ müəllimlərə ehtiyac vardır?
- İnklüziv təhsil üçün əsas müəllim bacarıqları hansılardır?

Layihədə əsas diqqət ümumtəhsil məktəb müəllimləri və inklüziv mühitdə işləmək üçün İlkin pedaqoji təhsil (İPT) vasitəsilə necə hazırlanmalı olduğu üzərində cəmləşdirilmişdir. Layihədə nəzərə alınmalı əsas sual aşağıdakı kimi olmuşdur: *bütün müəllimlərin "inklüziv" olması üçün ilkin pedaqoji təhsil vasitəsilə necə hazırlanırlanır?*

Agentliyin ölkə üzrə nümayəndələrindən daxil olan xüsusi müraciət inklüziv mühitdə işləyən bütün müəllimlər üçün tələb olunan zəruri bacarıqlar, münasibətlər, bilik və səriştəyə dair konkret məlumatlarla bağlı olmuşdur. Bu sənəd həmin müraciətə birbaşa cavabı özündə əks etdirir. Sənəddə TE4I layihəsi, o cümlədən beynəlxalq siyasət və ədəbiyyat araşdırması zamanı əldə edilmiş, ölkə hesabatlarından götürülmüş bir sıra məlumatlardan (http://www. european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion/country-info) və ən vacibi isə layihənin analitik hesabatının (*Avropada Çağırışlar və İmkanlar 2011*) tapıntıları və tövsiyələrindən istifadə olunur.

Profildə ölkələrdə artıq həyata keçirilmiş işlər təkrar olunmur. Əksinə, sənəddə ölkə nümayəndələrinin bildirdiyi ortaq narahatlıqların reallığa uyğun olaraq həllinə və ölkələr üzrə məlumatlara əsaslana ümumavropa səviyyəli alətin işlənib hazırlanmasına çalışılır. Profil sənədi ilkin pedaqoji təhsil proqramlarının tərtibi və icrasında bələdçi kimi işlənib hazırlanmışdır. Bu İPT məzmununa dair yazıdan ibarət deyildir, əksinə müvafiq məzmunun müəyyənləşdirilməsi, metodların planlaşdırılması və bir çox İPT formaları üçün arzuolunan təlim nəticələrinin müəyyən edilməsi üçün stimullaşdırıcı vasitələri özündə əks etdirir.

Profil sənədi təhsil sahəsindən olan layihə ekspertlərinin və 400-dən artıq digər maraqlı tərəflərin – məktəb və müəllim hazırlığı sektorundan olan peşəkarların, eləcə də İPT və müəllimlərin; valideyn və ailələrin; o cümlədən şagirdlərin da cəlb olunduğu müxtəlif fəaliyyət və müzakirələri özündə əks etdirir (daha ətraflı məlumat üçün bax: Metodologiya bölməsi).

*İnklüziv Müəllimlərin Profili* çox iddialı bir sənəddir. Orada TE4I layihəsi zamanı əldə olunan bütün məlumatlar öz əksini tapır, eləcə də İPT çərçivəsində ideal yanaşmanın təşviqi üçün ümumavropa səviyyəsində müzakirə olunaraq razılaşdırılmış ideyaların çərçivəsi təqdim edilir. Profil ölkələrdə inklüzivlik məqsədləri üçün müəllim hazırlığına dəstək üçün praktiki sənəd kimi işlənib hazırlanmışdır. Agentliyin İnklüziya üzrə müəllim hazırlığı layihəsində iştirak edən ekspertlərin hər biri razılaşır ki, *İnklüziv Müəllimlərin Profili* faydalıdır və əgər Avropa çərçivəsində daha geniş inklüzivliyə nail olunmaq istənilirsə, o zaman ilkin pedaqoji təhsil proqramlarında nəzərə alınmalıdır.

Profildə İPT proqramları çərçivəsində hansı əsas dəyər və bacarıqların inkişaf etdirilməsinə dair məlumatlar təqdim edilir? Lakin, sənəddə həmin bacarıqlardan ayrı-ayrı ölkə proqramları çərçivəsində müəllimlərin ilkin hazırlığı üçün necə istifadə olunmalı olduğu təsvir olunmur. İcra ilə bağlı bəzi əsas məsələlərin bu sənədin daha sonrakı bölməsində nəzərə alınmasına baxmayaraq, Profil sənədi ayrı-ayrı ölkələrin İPT sistemlərinin fərqli kontekstinə spesifik olaraq uyğun olan formada araşdırılmalı və inkişaf etdirilməli alət kimi hazırlanmışdır.

Xüsusi olaraq, Profil sənədinin məqsədləri aşağıdakılardan ibarətdir:

1.İstənilən ilkin pedaqoji təhsil proqramına tətbiq oluna bilən əsas dəyərlər və bacarıq sahələrinin müəyyən edilməsi. Bu əsas dəyərlər və bacarıq sahələri hər hansı yaş, təhsil mərhələsi yaxdur

sektor üçün spesifik deyil və hər hansı təhsil vermə forması və ya metoduna bağlı deyildir.

2. Bütün müxtəliflik formalarını nəzərə alaraq hazırlıq üçün zəruri olan əsas dəyər və bacarıq sahələrinin vurğulanması. Bu əsas dəyərlər və bacarıq sahələri İPT zamanı hazılanacaq, lakin daha sonra inkişaf üçün baza kimi istifadə olunacaq və gələcəkdə davamlı peşə inkişafı imkanları açacaqdır;

3. Bütün İPT proqramları çərçivəsində inklüziv təhsil üçün təklif olunan əsas dəyər və bacarıq sahələrinin tətbiqini dəstəkləyən əsas faktorların vurğulanması;

4. İnklüziv təhsilin bütün müəllimlərin öhdəliyi olması ilə bağlı TE4I layihəsi daxilində bildirilən arqumentlərin gücləndirilməsi.

TE4I bütün İPT tələbələrinin əsas məqsədi kimi layihənin analitik hesabatında göstərilən əsas tövsiyyə olmuşdur; Profil sənədində bu və analitik hesabatda təqdim edilən digər tapıntılar daha da inkişaf etdirilir və bütün müəllimlər üçün zəruri olan dəyərlər və bacarıqlar çərçivəsinə bağlayır.

Bu sənəd üçün əsas hədəf auditoriya müəllim hazırlayan pedaqoqlar və qərar qəbul edənlərdir – İPT üzrə menecerlər və siyasəti müəyyən edənlər – bu şəxslər inklüziya üzrə müəllim hazırlığına dair siyasətə təsir etmək və daha sonra dəyişiklikləri praktikada tətbiq etmək gücündədirlər. İPT üzrə bu maraqlı tərəflər əsas hədəf auditoriya hesab olunur, çünki TE4I layihəsinin digər məqsədi odur ki, müəllimlərin təlimi ümumilikdə inklüziv təhsillə bağlı tələb olunan daha geniş sistematik dəyişiklilər üçün əsas təsir nöqtəsidir.

İƏİT (2005) təklif edir ki, müəllimlərin keyfiyyətinin artırılması məktəbin məhsuldar fəaliyyətinin artırılması ilə nəticələnəcək siyasət təşəbbüsüdür. TE4I layihəsinin analitik hesabatında göstərilir ki, bu arqument daha da inkişaf etdirilə bilər. Belə ki, müəllimlərin bugünkü sinif otaqlarında müxtəlif ehtiyaclara cavab verə biləcək potensialda hazırlanması elə bir siyasət təşəbbüsüdür ki, bu, nəticədə daha inklüziv cəmiyyətlərin inkişafına təsir edəcəkdir.

Bu sənəd öz ölkələrində müxtəlif kontekstlərdə istifadə məqsədilə İPT-də maraqlı tərəflər üçün başlanğıc nöqtəsi təqdim edilir. Bu niyyətlə, Profil sənədi və bu sənəddə təsvir olunan köməkçi informasiya adi tədqiqatlarda yaxud hesabatlarda rast gəlinmir. Razılaşdırılmış Profil sənədi növbəti bölmədə təqdim olunur, onun ardınca aşağıdakıların təsvirinin verildiyi bölmə gəlir: Profilin tətbiqinə dəstək verən faktorların müzakirəsi; Profil üçün konseptual çərçivə, o cümlədən mövcud Avropa siyasət prioritetləri ilə bağlantı; Profilin hazırlanması üçün istifadə olunan metodlogiyanı təsvir edən bölmə və nəhayət bəzi yekun qeydlər.

Ölkə müzakirələri və inkişaf fəaliyyətinə dəstək məqsədilə

1. Bu sənədin 12-20-ci səhifələri müəllif hüququ olan material deyil və müxtəlif mümkün məqsədlərə cavab vermək məqsədilə tələb olunan qaydada hazırlana və modifikasiya edilə bilmək üçün siyasəti müəyyən edənlər və icraçılar üçün nəzərdə tutulmuşdur. Çap olunmuş sənədin ön örtüyündə Profilin ayrıca çıxarıla bilən nüsxəsi vardır ki, tələb olunan qaydada köçürülə və modifikasiya oluna bilər, bir şərtlə ki, mənbənin əslinə istinad edilsin.

2. Agentliyin veb səhifəsində, bu hesabatın tam nüsxəsi, eləcə də Profil sənədinin redaktə oluna bilən elektron versiyaları Agentliyin üzvü olduğu bütün ölkələrin dillərində istifadə üçün təqdim edilir: http://www.european-agency.org/agency-projects/teacher-education-for-inclusion/profile

# İNKLÜZİV MÜƏLLİMLƏRİN PROFİLİ

Tədris və təlim ilə bağlı dörd əsas dəyər bütün müəllimlərin inklüziv təhsil sahəsində fəaliyyətinin əsasını təşkil edir. Bu dörd əsas dəyər aşağıdakılardır:

1. Təhsilalanların müxtəlifliyinin dəyərləndirilməsi – təhsilalanların fərqliliyi təhsildə resurs və dəyər kimi qiymətləndirilir;

2. Bütün müəllimlərin dəstəklənməsi - müəllimlər bütün tələbələrin uğur qazanması ilə bağlı yüksək gözləntilərə malikdirlər;

3. Başqaları ilə birgə iş - əməkdaşlıq və komanda işi bütün müəllimlər üçün vacib yanaşmalardır;

4. Fərdi peşə inkişafının davam etdirilməsi - tədris bir öyrənmə fəaliyyətidir və müəllimlər ömürboyu öyrənmək üçün məsuliyyət daşıyırlar.

Aşağıdakı bölmələrdə müəllimin səlahiyyətinə aid olan sahələrlə yanaşı bu əsas dəyərlər təqdim olunur.

Səriştə sahələri üç elementdən ibarətdir: münasibətlər, biliklər və bacarıqlar. Müəyyən bir *münasibət* və ya inanc bu məlumatları praktikada həyata keçirmək üçün müəyyən bilik və ya anlayış səviyyəsini, daha sonra bacarıqları tələb edir. Müəyyən edilmiş hər bir bacarıq sahəsi üçün əsas münasibətlər, eləcə də onları şərtləndirən bilik və bacarıqlar təqdim olunur.

Qeyd etmək vacibdir ki, bütün vacib amillərin nəzərə alınmasına əmin olmaq üçün, bacarıq sahələri burada siyahıda təqdim olunur. Amma amillər iyerarxiya qaydasında deyildir və bütün bu amillərə bir-birilə əlaqəli və bir-birindən yüksək səviyyədə asılı olduğundan ayrıca şəkildə baxılmamalıdır.

Burada təqdim olunan bacarıq sahələri TE4I layihəsinin müzakirələri zamanı müəyyən olunan ən kritik məsələlərdir; Onlara müxtəlif ölkələrdə çalışan bütün müəllimlərin ehtiyac duyduğu kontekstə uyğun bacarıq sahələri üzrə müxtəlif səviyyələrdə müzakirələr üçün başlanğıc nöqtəsi və peşə inkişafının istiqaməti üçün baza kimi baxılmalıdır.

**1. Şagird müxtəlifliyinə dəyər verilməsi – şagird müxtəlifliyi resurs və təhsildə dəyər kimi hesab edilir.**

Bu əsas dəyər daxilində bacarıq sahələri aşağıdakılarla bağlıdır:
- İnklüziv təhsil konsepsiyaları;
- Şagirdlərin fərqliliyi ilə bağlı müəllimin baxışı.

### 1.1. İnklüziv təhsil konsepsiyaları

*Bu bacarıq sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

… təhsil, bütün şagirdlər üçün bərabərlik, insan hüquqları və demokratiyaya, inama əsaslanır;
… inklüziv təhsil cəmiyyət islahatıdır və müzakirə edilə bilməz;
… inklüziv təhsil və təhsildə keyfiyyət bir- birindən ayrı məsələlər kimi qəbul edilə bilməz;
… yalnız ümumi təhsilə çıxış əldə etmək kifayət deyil; iştirak o deməkdir ki, bütün şagirdlər on-

lar üçün əhəmiyyət kəsb edən öyrənmə fəaliyyətləri ilə məşğul olurlar.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar ...*

… qlobal və yerli kontekstlərdə inklüziv təhsilin əsasını təşkil edən nəzəri və praktik konsepsiya və prinsiplər;
… təhsil müəssisələrinin inklüziv təhsilə bütün səviyyələrdə təsir edən daha geniş mədəniyyət və siyasət sistemi. İşlədikləri təhsil sisteminin mümkün güclü və zəif cəhətləri müəllimlər tərəfindən qəbul edilməli və başa düşülməlidir;
… inklüziv təhsil yalnız bütün ehtiyac sahibləri və təhsil imkanlarından məhrum olma təhlükəsi ilə üzləşənlər üçün deyil, bütün öyrənənlər üçün bir yanaşmadır;
… inklüzivlik və müxtəliflik üçün dil və təhsilalanları təsvir etmək, etiketləmək və təsnif etmək üçün müxtəlif terminologiyadan istifadə etmə səyləri;
… inklüziv təhsil bütün təhsilalanların (təhsilə giriş) iştirakı (təhsil təcrübəsinin keyfiyyəti) və nailiyyəti (təlim prosesləri və nəticələri) kimi.

*Bu səriştə sahəsi üzrə inkişaf etdirilməli əsas bacarıq və qabiliyyətlər...*

… öz inanc və davranışları, o cümlədən onların hərəkətlərə təsirlərinin tənqidi şəkildə araşdırılması;
… etik davranış və məxfiliyə hörmətlə yanaşılması;
… mövcud vəziyyəti və konteksti anlamaq üçün təhsil tarixini araşdırmaq bacarığı;
… müəllimlərin qeyri-inklüziv münasibətlərə qarşı mübarizə aparmaq istiqamətində hazırlanmasına dair strategiyaların idarə edilməsi;
… təhsilalanların müxtəlif ehtiyaclarına qayğı ilə yanaşılması;
… sosial münasibətlərdə hörmətə əsaslanan davranışın modelləşdirilməsi və təhsilin bütün iştirakçıları və maraqlı tərəfləri ilə münasibətlərdə müvafiq dildən istifadə edilməsi.

### 1.2. Təhsilalanların fərqliliyi ilə bağlı müəllimin baxışları

*Bu bacarıq sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

… “fərqli olmaq tamamilə normaldır”;
… şagirdlərin müxtəlifliyi öyrənmə imkanlarının genişləndirən və məktəblərə, yerli icmalara və cəmiyyətə dəyər gətirən resurs kimi başa düşülməli, dəyər verilməli və hörmət edilməlidir;
… bütün təhsilalanların səsləri eşidilməli və qiymətləndirilməlidir;
… müəllim təhsilalanların özünə inamının artmasında və nəticə etibarilə, onların öyrənmə potensialının artmasında əsas təsiredici rola malikdir;
… təhsilalanların təsnifləşdirilməsi və damğalanması öyrənmə imkanlarına mənfi təsir göstərə bilər.

*Bu bacarıq sahəsinin əsasını təşkil edən əsas bilik və bacarıqlar...*

… təhsilalanların müxtəlifliyi ilə bağlı əsas məlumatlar (ehtiyaclarından, mədəniyyətdən, dildən, sosial-iqtisadi keçmişdən və s. səbəbdən yaranan dəstək);
… təhsilalanlar özləri və həmyaşıdları üçün müxtəlifliyin öyrənilməsinin asanlaşdırılmasında resurs kimi istifadə oluna bilər;

… təhsilalanlar müxtəlif yollarla bilik əldə edir və bundan onların öz öyrənmələrinə və həmyaşıdlarına dəstək üçün istifadə edilə bilər;
… məktəb təhsilalanların özünəinam və öyrənmə potensialına təsir edən bir cəmiyyət və sosial mühitdir;
… məktəb və siniflərdə təhsilalanlar daim dəyişir; müxtəliflik statik bir anlayış kimi qəbul edilə bilməz.

*Bu səriştə sahələri çərçivəsində inkişaf etdiriləcək vacib bacarıq və qabiliyyətlər...*

... fərqliliklərdən necə öyrənməyi öyrənmək;
... bütün hallarda müxtəlifliyə cavab vermək üçün ən uyğun yolları müəyyənləşdirmək;
... tədris proqramının həyata keçirilməsində müxtəliflik məsələsinə toxunmaq;
... tədris üçün bir qayda olaraq yanaşma və üslubların öyrənilməsində müxtəliflikdən istifadə etmək;
... məktəblərin bütün təhsilalanların nailiyyətlərinə hörmət edən və bütün təhsil alanların nailiyyətlərini təşviq edən və göstərən təhsil mərkəzi kimi bərqərar olmasına töhfə vermək.

**2. Bütün təhsilalanların dəstəklənməsi –** müəllimlərin bütün təhsilalanların nailiyyətləri ilə bağlı yüksək gözləntiləri vardır.

- Bütün təhsilalanlar üçün akademik, praktiki, sosial və emosional təlimin təşviq edilməsi;

- Heterogen siniflərdə effektiv tədris yanaşmaları.

### 2.1. Bütün təhsilalanlar üçün akademik, sosial və emosional təlimin təşviq edilməsi

*Bu səriştə sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

… təlim əsasən sosial fəaliyyətdir;
… akademik, praktiki, sosial və emosional təhsil bütün təhsilalanlar üçün eyni dərəcədə vacibdir;
… müəllimlərin gözləntiləri şagird müvəffəqiyyətinin əsas təminatçısıdır və buna görə bütün təhsilalanlar üçün yüksək gözləntilər vacibdir;
… bütün təhsilalanlar özlərinin təlim prosesində və iştirak etdikləri qiymətləndirmə proseslərində aktiv qərar qəbulverici olmalıdırlar;
… valideynlər və ailələr təhsilalanların təlimləndirilməsi üçün əsas resurslardır;
… bütün təhsilalanlarda müstəqillik və öz müqəddəratını sərbəst təyin etmənin inkişaf etdirilməsi vacibdir;
… hər bir təhsilalanın öyrənmə potensialı və bacarığı aşkar edilməli və stimullaşdırılmalıdır.

*Bu səriştə sahənin əsasını təşkil edən əsas biliklər...*

… valideynlər və ailələrlə əməkdaşlığın dəyərini anlamaq;
… xüsusilə sosial və ünsiyyət bacarıqlarının inkişafı ilə əlaqədar olaraq tipik və atipik uşaq nümunələri və yolları;
… təhsil alanların öyrənməyə yanaşmaları və öyrənmə modelləri fərqli ola bilər.

*Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan bacarıqlar...*

... təhsilalanların, valideynlərin və digər peşəkarların müxtəlif ünsiyyət ehtiyaclarına cavab verə biləcək effektiv verbal və qeyri-verbal natiqlik bacarıqlarının olması;
... təhsilalanların ünsiyyət bacarıqlarının və imkanlarının inkişafının dəstəklənməsi;
... təhsilalanlarda öyrənmə bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;
... müstəqil və sərbəst təhsilalanların inkişaf etdirilməsi;
... interaktiv təlim yanaşmalarının asanlaşdırılması;
... təhsilalanların sosial inkişaf və qarşılıqlı əlaqələrinə dəstək verən müsbət idarəçilik yanaşmalarının tətbiq edilməsi;
... təhsilalanların risk götürdükləri və hətta təhlükəsiz mühitdə uğursuzluğa uğradıqları vəziyyətlərin öyrənilməsinin asanlaşdırılması;
... sosial və emosional, eləcə də akademik təlimi nəzərə alan təlim yanaşmalarının qiymətləndirməsindən istifadə edilməsi.

### 2.2. Heterogen siniflərdə effektiv tədris yanaşmaları

*Bu səriştə sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

... effektiv müəllimlər bütün təhsilalanların müəllimləri hesab edilir;
... müəllimlər siniflərdə bütün təhsilalanların təlimdə iştirakına görə məsuliyyət daşıyır;
... təhsilalanların bacarıqları sabit deyil; bütün təhsilalanlar öyrənmə və inkişaf qabiliyyətinə malikdir;
... öyrənmə bir prosesdir və bütün təhsilalanlar üçün məqsəd yalnız məzmunun-mövzu üzrə biliklərin inkişafı deyil, həm də "öyrənmə bacarıqlarının inkişafıdır";
... öyrənmə prosesi bütün təhsilalanlar üçün əsasən eynidir - çox az "xüsusi metodlar" vardır;
... bəzi hallarda xüsusi təlimdə yaranan çətinliklər tədris planına və tədris yanaşmalarına adaptasiya edilməsini tələb edir.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar...*

... təhsilalanların öyrənmə yolu ilə nəzəri bilikləri və öyrənmə prosesini dəstəkləyən tədris modelləri;
... müsbət davranış və sinif rəhbərliyi yanaşmaları;
... təhsilin dəstəklənməsi üçün sinfin fiziki və sosial mühitinin idarə edilməsi;
... təhsilalma və onun tədris yanaşmalarına təsirlərinə müxtəlif maneələrin müəyyənləşdirilməsi və daha sonra həlli yolları;
... əsas bacarıqların inkişafı - xüsusilə əsas bacarıq və səriştə - aidiyyəti tədris və qiymətləndirmə yanaşmaları ilə birlikdə;
... təhsilalanın güclü tərəflərinin müəyyənləşdirilməsinə yönəlmiş təlim metodlarının qiymətləndirilməsi;
... təhsilalanların əhatə edilməsi və müxtəlif ehtiyacların qarşılanması məqsədilə tədris proqramının məzmununun, öyrənmə prosesinin və öyrənmə materiallarının differensiallaşdırılması;
... təhsilalanların öyrənmə prosesində sərbəstliyinin artmasını təmin edən və bütün təhsilanları əhatə edən fərdi öyrənmə yanaşmaları;

... fərdi təhsil planlarının (IEP) və ya uyğun olduqda bənzər fərdi öyrənmə proqramlarının hazırlanması, tətbiqi və effektiv nəzərdən keçirilməsi.

*Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan əsas bacarıq və qabiliyyətlər...*

… sinfin effektiv idarə olunması ilə bağlı sistematik yanaşmanı özündə əks etdirən sinif rəhbərliyi bacarıqlarından istifadə edilməsi;
… təhsilalanlarla fərdi şəkildə, eləcə də heterogen qruplarla iş;
… kurikulumdan inklüzivlik üzrə təhsilə əlçatanlığı dəstəkləyən bir vasitə kimi istifadə edilməsi;
… kurrikulum hazırlanması proseslərində müxtəliflik məsələsinin nəzərə alınması;
… öyrənmə metodlarının, təlim məzmununun və nəticələrinin differensiallaşdırılması;
… təlim və hədəf mühitin fərdiləşdirilməsi üçün təhsilalanlar və onların ailələri ilə birgə iş;
… çevik qruplar çərçivəsində təhsilalanların bir-birlərinə müxtəlif yollarla kömək etdiyi interaktiv təlim mühitinin yaradılması;
… bir sıra təlim metodları və yanaşmalarından sistematik şəkildə istifadə edilməsi;
… təhsilə çevik yanaşmaların dəstəklənməsi üçün İKT və adaptiv texnologiyadan istifadə edilməsi;
… təlim məqsədlərinə nail olmaq, öyrənmək üçün alternativ yollardan istifadə edilməsi, çevik təlimatlandırma aparılması və təhsil alanların suallarına aydın cavablar vermək üçün sübutlara əsaslanan tədris yanaşmasından istifadə edilməsi;
… təhsilalanları dəstəkləyən və onlara mənfi təsir göstərməyən və ya damğalamayan formativ və summativ qiymətləndirmədən istifadə etmək;
… təhsilalanlara münasibtədə problemlərin birgə həlli yanaşmasından istifadə;
… təhsil almanı asanlaşdırmaq üçün bir sıra verbal və qeyri-verbal ünsiyyət bacarıqlarına diqqət vermək.

**3. Digər əməkdaşlarla birgə iş** – əməkdaşlıq və komanda işi bütün müəllimlər üçün əsas yanaşmalardır.
- Valideynlər və ailələrlə birgə işləmək
- Digər təhsil mütəxəssisləri ilə birgə işləmək.

### 3.1. Valideynlər və ailələrlə birgə işləmək

*Bu səriştə sahəsinin əsasını təşkil edən yanaşma və inanclara aşağıdakılar daxildir ...*

… valideynlər və ailələrlə birgə işləməyin dəyəri haqqında məlumatlılığın artırılması;
… valideynlərin və ailələrin mədəni və sosial keçmişlərinə və perspektivlərinə hörmət edilməsi;
… valideynlər və ailələrlə səmərəli ünsiyyət və əməkdaşlığa müəllimlərin məsuliyyəti kimi baxılması.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar...*

… əməkdaşlığa əsaslanan inklüziv tədris;
… müsbət qarşılıqlı ünsiyyət bacarıqlarının əhəmiyyəti;
… qarşılıqlı münasibətlərin təlim nəticələrinə təsiri.

*Bu səriştə sahələri çərçivəsində inkişaf etdiriləcək əsas bacarıqlar...*

… uşaqların təlimləndirilməsinə dəstək məsələsində ailə və valideynlərlə effektiv işin qurulması;
… müxtəlif mədəni, etnik, linqvistik və sosial keçmişə malik ailə üzvləri və valideynlərlə effektiv kommunikasiyanın qurulması.

**3.2. Digər təhsil mütəxəssisləri ilə birgə işləmək**

*Bu səriştə sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

… inklüziv təhsil bütün müəllimlərin komanda halında işləməsini tələb edir;
… əməkdaşlıq, tərəfdaşlıq və komanda işi bütün müəllimlər üçün əsas yanaşmalardır və müsbət qarşılanmalıdır;
… əməkdaşlığa əsaslanan komanda işi digər mütəxəssislərdən öyrənməyə imkan yaradır.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və bacarıqlar...*

… digər müəllim və təhsil işçiləri ilə birgə işin dəyərinin dəyəri və faydaları;
… əlavə yardım, töhfə və məsləhət üçün mümkün dəstək sistemləri və quruluşları;
… inklüziv sinifdə müəllimlərin müxtəlif ixtisaslar üzrə mütəxəssislər və işçilərlə əməkdaşlıq etdiyi çoxfunksiyalı iş modelləri;
… müəllimlərin təhsil alanların özləri, valideynləri, həmyaşıdları, digər məktəb müəllimləri və yardımçı işçilər, eləcə də əgər müvafiq olarsa, multidisiplinar qrup üzvləri ilə komanda şəklində işlədiyi birgə tədris yanaşmaları;
… təhsilə cəlb olunmuş digər mütəxəssislərin dili/terminologiyası və əsas iş anlayışları və perspektivləri;
… müxtəlif maraqlı tərəflər arasında mövcud olan və qəbul edilməli olan effektiv münasibətlər.

*Bu səriştə sahəsi çərçivəsində inkişaf etdirilməsi vacib olan bacarıq və qabiliyyətlər ...*

… müxtəlif mütəxəssislərin iştirak etdiyi səmərəli işin qurulmasını təmin edən sinif rəhbərliyi və idarəçilik bacarıqlarının tətbiq edilməsi;
… çevik tədris qruplarında birgə tədris və iş;
… məktəb kollektivinin bir hissəsi kimi işləmək və məktəbin daxili və xarici resurslarından istifadə edilməsi;
… geniş məktəb kollektivinin bir hissəsi olan sinif kollektivinin qurulması;
… ümumməktəb qiymətləndirməsinin keçirilməsi, qiymətləndirmə nəticələrinin nəzərdən keçirilməsi və təkmilləşmə proseslərinə töhfə verilməsi;
… digər mütəxəssislər ilə birlikdə problemlərin həll edilməsi;
… digər məktəblər, icma təşkilatları və digər təhsil təşkilatları ilə daha geniş tərəfdaşlığın qurulmasına töhfə verilməsi;
… digər peşəkarlar ilə əməkdaşlıq şəraitində işin təmin edilməsi üçün bir sıra verbal və qeyri-verbal kommunikasiyadan istifadə edilməsi...

**4. Fərdi peşəkar inkişaf** – tədris həm də bir təlim fəaliyyətidir və müəllimlər ömürboyu öyrənmə üçün məsuliyyət daşıyırlar.

Əsas dəyərlər daxilində bacarıq sahələri aşağıdakılar ilə bağlıdır:

- Müəllimlər refleksiv mütəxəssislər kimi;
- İlkin pedaqoji təhsil fasiləsiz pedaqoji təhsil və inkişafın təməli kimi.

### 4.1. Müəllimlər refleksiv mütəxəssislər kimi

*Bu səriştə sahəsinin əsasını təşkil edən yanaşma və inanclar...*

… müəllimlik problemlərin həllinə istiqamətlənmiş fəaliyyətdir və davamlı, sistematik planlaşdırma, qiymətləndirmə, refleksiya və daha sonra modifikasiya tədbirləri tələb edir;
… refleksiya valideynlərlə, eləcə də komanda şəklində digər müəllimlər və peşəkarlar ilə işləməkdə müəllimlərə kömək edir;
… müəllimin işinə rəhbərlik etmək üçün sübuta əsaslanan praktikanın əhəmiyyəti;
… müəllim işinə rəhbərlik etmək üçün fərdi pedaqoji inkişafın əhəmiyyətini qiymətləndirir.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar ...*

… şəxsi meta-koqnitiv bacarıqların öyrənilməsi üzrə təlimlənmək;
… efleksiv müəllim nədir və fərdi refleksiya necə inkişaf etdirilə bilər;
… öz işini və fəaliyyətini qiymətləndirmək üçün üsullar və strategiyalar;
… fəaliyyətin tədqiqi üsulları və müəllimlərin işi ilə əlaqəlilik;
… problemlərin həlli üçün fərdi strategiyaların inkişafı.

*Bu səriştə sahəsinin inkişaf etdirilməsi üçün vacib olan bacarıq və qabiliyyətlər...*

… sistematik olaraq öz performansının qiymətləndirilməsi;
… digərlərinin refleksiya prosesinə cəlb edilməsi;
… təhsil müəssisəsi kimi məktəblərin inkişafına töhfə verilməsi.

### 4.2. İlkin pedaqoji təhsil fasiləsiz pedaqoji təhsil və inkişafın təməli kimi

*Bu səriştə sahəsinin əsasını təşkil edən münasibətlər və inanclar...*

... müəllimlər öz davamlı peşə inkişafı üçün məsuliyyət daşıyırlar;
... ilkin pedaqoji təhsil müəllimlərin ömürboyu öyrənmələri üçün ilk addımdır;
... tədris bir öyrənmə fəaliyyətidir; yeni bacarıqları öyrənməyə açıq olmaq və fəal məlumat və məsləhət üçün müraciət etmək yaxşı bir haldır, zəiflik deyil;
... müəllim inklüziv təhsillə bağlı bütün məsələlərdə ekspert ola bilməz. İnklüziv təhsilə başlayanlar üçün ilk vacib olan bilikdir, daha sonra isə davamlı öyrənmək lazımdır;
... dəyişiklik və inkişaf inklüziv təhsildə sabitdir və müəllimlər öz karyeralarında dəyişən ehtiyac və tələblərə cavab vermək bacarıqlarına ehtiyac duyurlar.

*Bu səriştə sahəsinin əsasını təşkil edən əsas bilik və anlayışlar...*

... təhsil qanunvericiliyi və müəllimlərin işlədiyi hüquqi mühit və onların təhsilalanlara, həmkarlarına və həmin hüquqi mühit çərçivəsində digər tədris peşəsinə münasibətdə vəzifələri.

*Bu səriştə sahəsi üzrə inkişaf etdirilməsi vacib olan bacarıq və qabiliyyətlər ...*

... yenilik və fərdi öyrənməni təşviq edən tədris strategiyalarında çeviklik;
... peşəkar inkişaf imkanlarını təmin etmək üçün imkanları təmin edəcək vaxtın idarə olunması strategiyalarının tətbiqi;
... öyrənmək və ilham mənbələri kimi həmkarlarına və digər işçilərə açıq və proaktiv olmaq;
... bütün məktəb kollektivinin öyrənmə və inkişaf proseslərinə kömək etmək.

# İNKLÜZİV MÜƏLLİMLƏRLİN PROFİLİNİN TƏTBİQİ

## Ümumi prinsiplər

Aşağıdakı bəyanatlar *İnklüziv Müəllimlərin Profili* daxilində təklif olunan əsas dəyərlər və bacarıq sahələrinin əsasını təşkil edən razılaşdırılmış ümumi prinsipləri özündə əks etdirir.

1. İnklüziv təhsil sahəsində çalışanlar üçün dəyərlər və bacarıq sahələri bütün müəllimlər üçün vacibdir, çünki inklüziv təhsil bütün müəllimlərin məsuliyyətidir.

2. İnklüziv təhsil üçün bilik və bacarıq sahələri müəllimləri sinif otağında müxtəlif ehtiyaclara malik təhsilalanlarla işləmək üçün zəruri fundamental bilik və bacarıqlarla təmin edir. Bu, inklüzivlik üzrə diqqəti xüsusi təhsilalanlar qrupunun ehtiyaclarının qarşılanmasından kənara yönəldir (məsələn, xüsusi təhsil ehtiyacları olanlar). Dəyərlər və bacarıq sahələri bir daha sübut edir ki, inklüziv təhsil yalnız xüsusi ehtiyacları olan müəyyən qruplar üçün yanaşma deyil, bütün təhsil alanlar üçün tətbiq olunmalı yanaşmadır.

3. Bu sənəddə İPT üzrə müəyyən edilmiş dəyərlər və bacarıq sahələri təlim zamanı və digər müəllim hazırlığı şəraitlərində inkişaf etdirilməli əsas münasibətlər, bilik və bacarıqların təməlidir. Səriştə sahələri, aydın inkişaf yolları, o cümlədən xüsusi təhsil ehtiyacı olanlar üçün kurslar vasitəsilə təklif olunan peşə inkişafı imkanlarının davamlılığının ayrılmaz tərkib hissəsidir. Hər bir müəllimin peşə karyerasında bu səriştə sahələri daim inkişaf etdirilməlidir.

4. Bütün müəllimlərin inklüziv şəraitdə işləyə bilmələri üçün lazım olan dəyərlər və səriştə sahələri xüsusi təhsil ehtiyacları olan uşaqlarla tədris aparan müəllimlər üçün ixtisaslaşdırılmış təhsil və təlimlə ziddiyyət təşkil etməyə bilər. Bu dəyər və bacarıq sahələri bütün müəllimlər üçün əsas hesab edilir – ümumi fənnlər və konkret ixtisaslar mütəxəssisləri üçün.

5. Bu Profildə təsvir olunan dəyər və bacarıq sahələri müəllimlərin bütün həyat boyu öyrənən insanlar kimi inkişafına böyük dəstək nəzərdə tutur.

6. Dəyərlər və səriştə sahələri müəllimlərin peşəkar inkişafına kömək edə və müəllim hazırlığı aparan pedaqoqların işində təlimat mənbəyi ola bilər.

7. İnklüziv təhsil üçün dəyərlər və səriştə sahələri İPT kursunun tərtib edilməsi/planlaşdırılması üçün bir başlanğıc nöqtəsi kimi qəbul edilməlidir. İnklüziv təhsilin sistemli yanaşma kimi prinsipi İPT-yə və məktəb tədris proqramlarına tətbiq edilməlidir.

8. Müxtəlif milli vəziyyət və kontekstlərdə çoxsaylı maraqlı tərəflər ilə müzakirə olunacaq İPT ehtiyacları çərçivəsində inklüziv təhsil üçün dəyərlərin və səriştə sahələrinin inteqrasiyası. Bu cür dialoq sayəsində bacarıq sahələri sinif müəllimləri və digər maraqlı tərəflər arasındakı mövcud olan rabitəsizliyin azaldılması üçün potensial mexanizm ola bilər.

**Profildən istifadə**

TE4I layihəsi çərçivəsində İPT-nin məqsədinin aşağıdakı şəkildə olması ilə bağlı razılaşma əldə edilmişdir:

- Yeni müəllimlərin əməli fəaliyyətdə daha inklüziv olması üçün bacarıqlarının inkişaf etdirilməsi;
- Tədrisdə səmərəli nəticələr göstərən yeni müəllimlərin, eləcə də fənnin məzmunu üzrə mütəxəs-

sislərin inkişaf etdirilməsi.

*İnklüziv Müəllimlərin Profili* bütün İPT proqramları üçün bu fəaliyyətə dəstək məqsədilə hazırlanmışdır. Əsas dəyərlər və səriştə sahələri çarpazlaşır – onlar bir sektor və ya mövzuya həsr olunmur. Eynilə, əsas dəyərlər və bacarıq səriştə yalnız bir proqrama aid edilmir.

İlk növbədə, *İnklüziv Müəllimlərin Profili* bütün müəllimlər üçün ilkin pedaqoji təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi üçün təlimat olaraq hazırlanmışdır. Bu İPT məzmunu üçün sadəcə mətn deyil, əksinə, müvafiq məzmunun, planlaşdırma metodlarının müəyyənləşdirilməsi və inklüziv təhsil üçün arzuolunan təlim nəticələrinin müəyyənləşdirilməsi üçün stimul material kimi qəbul edilməlidir.

Nəzərdə tutulan belə istifadə TE4I layihəsində iştirak edən mütəxəssislər tərəfindən müzakirə olunub və razılaşdırılıb. Bununla yanaşı, layihə fəaliyyətlərində iştirak edən müxtəlif maraqlı tərəflər arasında müzakirələr profilin digər ssenarilərdə potensial olaraq istifadə oluna biləcəyini göstərdi. Profilin layihə müzakirələrində vurğulanan digər məqsədlər üçün istifadəsi ilə bağlı təkliflər aşağıdakılardır:

- Tələbə müəllimləri üçün, Profil sənədi refleksiya üçün vasitə ola bilər. Xüsusilə, profil məktəblərdə özünü təcrid hallarının aradan qaldırılması üçün başlanğıc nöqtəsi ola bilər;
- Müəllim pedaqoqlar üçün Profil bütün inklüziv təhsilin təhsilalanlar üçün bir yanaşma kimi istifadəsində müzakirə vasitəsi ola bilər. Profil həmçinin, müəllim hazırlığı aparan pedaqoqların özləri üçün müxtəlif ehtiyaclara malik tələbələrlə işləmək məqsədilə təlimat kimi istifadə oluna bilər;
- Müəllimlər üçün Profil davamlı peşəkar inkişaf fəaliyyətləri üçün fərdi prioritetlərin müəyyənləşdirilməsində istifadə edilə bilər;
- Məktəb rəhbərləri üçün Profil müəllimlərin təlimi və uzunmüddətli və davamlı peşəkar inkişafı üçün təlimat kimi nəzərdən keçirilə bilər;
- Təhsil sahəsində işəgötürənlər üçün Profil məktəblərdə işləmək üçün hazır olan mütəxəssislərin müəyyənləşdirilməsi məqsədilə işə qəbul zamanı təlimat kimi istifadə oluna bilər. Profil həmçinin məktəblərdə işləyən digər peşəkarların (məsələn, təhsil psixoloqları və məsləhətçilər) ilkin və uzunmüddətli peşə inkişafı üçün prioritetləri aydınlaşdıra bilər.

Bu son təklif layihədə bir çox maraqlı tərəflərin qaldırdığı və tez-tez təkrarlanan bir məsələni xüsusilə göstərir. Bu, Profidə təklif olunan əsas dəyərlərin yalnız bütün müəllimlər üçün deyil, eyni zamanda həm də məktəb rəhbərlərinin, müəllim pedaqoqların və digər təhsil işçilərinin, eləcə də qərar qəbul edənlərin fəaliyyəti üçün vacibdir.

**Profilin tətbiqini dəstəkləyən amillər**

Üçillik Layihə fəaliyyətləri zamanı müəllimlərin inklüziya üzrə təhsilinin tətbiqinə bir sıra maneələr müəyyən edilmiş və müzakirə edilmişdir. Bununla belə, ölkələrdə artıq həyata keçirilən işlərdən məlum olur ki, potensial maneələrlə bağlı innovativ həll variantları təqdim edən yanaşmalar mövcuddur. Belə yenilikçi təcrübənin nəzərdən keçirilməsi nəticəsində, İnklüziv Müəllimlərin Profili haqqında maraqlı tərəflərlə aparılan xüsusi müzakirələrə əsaslanaraq, Profilin tətbiqini dəstəkləyən bir sıra əsas amillər müəyyən edilmişdir. Bu amillər Profilin yalnız ilkin müəllim hazırlığı proqramları çərçivəsində mümkün istifadəsini deyil, eyn izamanda məktəblərdə və müəllim hazırlığında siyasət və praktika ilə bağlı daha geniş məsələləri əhatə edir.

Aşağıdakı bölmələrdə bu əsas dəstəkləyici amillər TE4I layihəssinin analitik hesabatında təqdim olunmuş İPT üzrə tövsiyyə olunan səkkiz sahə ilə birbaşa əlaqələndirilir. (ətraflı məlumat üçün http://www.european-agency.org/publications/ereports/te4i-challenges-andopportunities/te4i-challenges-and-opportunities linkinə daxil olun)

Layihə tövsiyələri bütün Avropada İPT üzrə gələcək inkişaf prosesləri ilə bağlı prioritet sahələri açıq şəkildə göstərir. Layihə üzrə maraqlı tərəflərin Profilin tətbiqinə dəstək üçün vacib hesab etdiyi faktorlar analitik hesabatda qeyd olunan əsas tövsiyyələrin həllində də faktor kimi nəzərdən keçirilə bilər.

*1. Müəllimlərin hazırlığı ilə bağlı faktorlar*

*1.1. İPT üçün müəllim namizədlərin işə götürülməsi*

- Müəllimlik ixtisası üzrə təhsil alanların müxtəlifliyinin qiymətləndirilməsi müəllim hazırlığı müəssisələrinin siyasət və fəaliyyətlərində əks olunan əsas dəyər olmalıdır;
- İPT ixtisasına qəbul və işə qəbul strategiyaları, tələbə müxtəlifliyi məsələlərinin həllinin vacib olduğu hallarda, diqqətlə nəzərdən keçirilməlidir. Müxtəlif mədəni və sosial təcrübələrə malik müəllim namizədlərinin diqqətini cəlb etməyə yönəlmiş tədrisə çevik yol işlənib hazırlanmalıdır. Xüsusilə əlilliyi olan tələbələrin cəlb edilməsinə dəstək verən tədris yolları (Birləşmiş Millətlər Təşkilatının 2006-cı il tarixli "Əlillərin hüquqları haqqında" Konvensiyasında təsvir olunduğu kimi) nəzərdən keçirilməlidir.

*1.2 İPT proqramları*

- İPT-nin əsas məqsədi tələbə müəllimlərə tənqidi düşünmə və analitik bacarıqlar əsasında öz şəxsi pedaqoji nəzəriyyələrinin inkişaf etdirilməsində köməklik göstərməkdir. İPT habelə müəllimlərin məktəbdə tədris sahəsində daha geniş rolunu qiymətləndirməyə kömək edir.
- Tələbə müəllimlərin İPT-yə gətirəcəyi mədəni normalar, dəyərlər bilik və bacarıqların əldə edilməsi üçün lazımi başlanğıc nöqtəsi kimi nəzərdən keçirilməlidir. İlkin müəllim hazırlığı tələbələrin əvvəlki inklüziya təcrübələri əsasında qurulmalıdır. Hər cür stereotiplərə meydan oxuyan və müxtəlifliyi əhatə edən məsələlərin dərindən anlaşılmasına və bu anlayışı tətbiq etmək qabiliyyətinə əsaslanan həssaslığı inkişaf etdirən fəaliyyətlərə ehtiyac var.
- İPT tələbələri fərqli ehtiyaclara malik şagirdlərlə işləmək təcrübəsinə və inklüziv şəraitdə işləmək bacarığına malik olmalıdır. İPT tələbələri məktəbdə peşəkar inkişaf imkanları zamanı nəzəriyyəni praktikaya gətirməli və inklüziv mühitdə yerləşdirmə imkanlarına malik olmalıdırlar.
- Bir fənn üzrə tədris deyil, fənlərarası inteqrasiya İPT-də öz əksini tapmalıdır. İT üçün tədris proqramı inklüziv təcrübənin bütün məzmun sahələrinə və mövzularına nüfuz etməsi modelinə əsaslanmalıdır. Belə bir tədris planı:

  - ümumi təhsildən təcrid olma ehtimalı olan fərdlərin və qrupların xüsusi öyrənmə ehtiyaclarını nəzərə alaraq, mütəxəssislərin töhfələri ilə balanslaşdırılmalı;
  - İPT tələbələri real həyat problemlərinin həlli vəziyyətləri zamanı təhsil üçün maneələri, eləcə də uğur üçün imkanları təcrübə etməklə çətinliklərlə qarşılaşdırır.

- İPT-də əsas məqsəd "dəyərlərin praktikada tətbiqi" olmalıdır. Əsas dəyərlərin və bacarıq sahələrinin qiymətləndirilməsi əsasən İPT-də təlim yanaşması üçün qiymətləndirmənin aparılmasını tələb edir. Xüsusilə, bacarıq sahələri daxilində olan bilik və yanaşmalar müxtəlif qiymətləndirmə metodları və müxtəlif yollarla sübut olmalıdır, (məsələn özünüqiymətləndirmə, tələbə, onların yaşıdları, mentor və müəllimlər arasında birgə qiymətləndirmə, eləcə də sübut portfeli).

*1.3. Müəllim hazırlığı aparan pedaqoqların işi*

- *İnklüziv Müəllimlərin Profilində* təsvir olunan əsas dəyərlər və səriştə sahələri bütün İPT prosesində iştirak edən müəllimlərin işinə şamil edilir. Müəllimlər tələbələrlə iş zamanı əsas dəyərləri və səriştə sahələrini modelləşdirməlidir. Xüsusilə müxtəlifliyi qiymətləndirməyi və bir sıra tədris və qiymətləndirmə yanaşmalarını istifadə edərək tələbələrin effektiv təlimləndirilməsini nümayiş etdirməlidirlər. Onlar həmçinin məktəbdəki işçi heyət və digər fənn müəllimləri ilə birgə işləməlidirlər.
- İPT üzrə tədris aparan müəllimlər özlərinə ömürboyu təhsil alan şəxslər kimi baxmalıdırlar. Onlar inklüziv müəllim hazırlayan pedaqoqlar kimi fəaliyyətlərinin təkmilləşdirilməsi üçün fəal olmalı və karyeralarında davamlı peşəkar inkişaf imkanları baxımından davamlı olaraq dəstəklənməlidirlər.
- İnklüziv müəllim olmaları üçün tələbələrin səmərəli şəkildə dəstəklənməsi məqsədilə, bütün müəllim hazırlığı aparan pedaqoqlar, xüsusilə müxtəlif ehtiyaclara malik tələbələrlə iş təcrübəsi olmadığı hallarda, bilik, bacarıq və dəyərlərin inkişafı işi ilə məşğul olmalıdırlar. İdeal olaraq, müəllim hazırlığı aparan pedaqoqlar üçün peşəkar inkişaf imkanları müxtəliflik məsələlərini özündə əks etdirən maarifləndirmə işlərini əhatə etməlidir. Bununla belə, bütün müəllim hazırlığı aparan pedaqoqlar Profildə təsvir edilmiş əsas dəyər və səriştə sahələrini effektiv şəkildə modelləşdirməli olduğu hallarda, inklüziv təhsil sahəsində birbaşa təcrübə də lazım ola bilər və tələbələrə fərqli ehtiyaclara malik təhsilalanların təliminin nə, necə və nə səbəbdən vacib olduğu effektiv şəkildə çatdırılmalıdır.

*1.4. Məktəblər və müəllim hazırlığı aparan qurumlar arasında əməkdaşlıq*

- İPT tələbələrinin məktəblərdə praktiki təcrübə əldə etmək imkanlarının təmin edilməsi üçün müəllim hazırlığı struktur və resurslarında müəllim hazırlığı üzrə pedaqoqlar və müxtəlif məktəblərin peşəkarları, eləcə də daha geniş ictimaiyyət arasında komanda işi təmin edilməlidir.
- Ali təhsil müəssisəsinin (ATM) və məktəb mentorlarının (müəllimlərin) müxtəlif vəzifələri də nəzərdən keçirilməlidir. Müxtəlif vəziyyətlərdə müəllimlərin müvafiq şəkildə dəstəklənməsi və müxtəlif məktəb fəaliyyətlərinə kömək məqsədilə (yalnız sinif otağında tədris deyil), məktəb heyəti İnklüziv Müəllimlər Profilində təklif olunan yanaşmadan istifadə etməlidir. Bu, onların özlərinin peşə inkişafı imkanlarına malik olmasını tələb edir.

*2. Müəllim və inklüziv təhsil siyasəti ilə bağlı faktorlar*

*2.1. Sistemli yanaşma*

- İnklüziv təhsilin sinif auditoriyasında həyata keçirilməsində müəllimlərin rolu çox vacibdir. Bununla belə, inklüziv müəllim inklüziv məktəblərin inkişafında yeganə komponent deyil və onların rolu sadəcə daha geniş sistemli yanaşmanın bir hissəsini təşkil edir. Belə bir yanaşma təhsil alanların hüquqlarının təmin edilməsinə, eləcə də bütün təhsil səviyyələrində bu hüquqların həyata keçirilməsini asanlaşdıran köməkçi strukturların və resurslarının yaradılmasına yönəlib.
- Regional və milli səviyyədə hakimiyyət orqanları inklüziv təhsil üzrə gələcəyə baxışın müəyyən edilməsində vacib rol oynayırlar. Bütün müəllim hazırlığı və məktəb siyasətləri

sübutlara əsaslanan tədqiqatlardan istifadə etməklə inkişaf etdirilməlidir. Bu siyasətlər qarşılıqlı dəstək və eyni məqsədlər uğrunda çalışmaq məqsədilə uyğunlaşdırılmalı və qarşılıqlı əlaqələndirilməlidir.

- İPT üzrə institusional siyasət inklüziv təhsil təşkilatları kimi ali təhsil müəssisəsinin aydın məqsədləri əsasında idarə edilməlidir. Belə bir vizyonun formalaşdırılması, əlaqələndirilməsi və daha sonra həyata keçirilməsində rəhbər şəxslərin rolu vacibdir. İnstitusional siyasət bütün proqramlar daxilində inklüziv təhsilə dair yanaşmanı təşviq etməlidir. İnklüziv təhsil fənnlər və sektorlar arasında çarpaz olmalı və nəticədə, İPT üzrə siyasət müəllim hazırlığı üzrə pedaqoqların işə qəbulu və peşə inkişafı kimi digər çarpaz məsələlərə dair nəticələri nəzərə almalıdır.
- Müəllimlər hazırlığı üzrə işçi qüvvəsi daxilində homogenlik (həmcinslik) tələbələr arasında da eyni səviyyədə homogenliyin olmasını tələb edir. İPT tələbələri rol modelləri tələb edir - müəllim hazırlığı üzrə pedaqoqlar və qərar qəbul edənlər (cəmiyyətin müxtəlifliyini əks etdirirlər). Universitetlərdə işə qəbul strategiyalarında yerli icma üzvlüyündə müxtəlifliyin əks olunmasının zəruriliyini nəzərə almalıdır.
- Müəllimlərin hazırlığı ilə məşğul olan pedaqoqlar təlim, mentorluq və davamlı peşəkar inkişaf üçün imkanlara ehtiyac duyurlar – bu imkanlar onları inklüziv müəllimlərin hazırlanması ilə məşğul olan pedaqoqlar kimi dəstəkləyir.

*2.2. Dil və terminologiyanın aydınlaşdırılması*

- İnklüziv təhsil üçün əsas konsepsiyalar ilə bağlı ümumi tərif və anlayışlar onun həyata keçirilməsinə dəstək üçün lazımdır. İnklüziv təhsil sahəsində müxtəlif maraqlı tərəflər arasında əməkdaşlıq, *İnklüziv Müəllimlərin Profilində* əsas dəyər və səriştə sahələrinin əsasını təşkil edən ümumi konsepsiyalardan istifadə etməklə asanlaşdırıla bilər.
- İnklüziv təhsil bütün təhsilalanlar üçün bir yanaşma kimi qəbul edilməlidir. Müəllimlərin işinin əsasını bütün təhsilalanlar üçün təlim maneələrinin aradan qaldırılması təşkil etməlidir. İnklüziv təhsilə azlıq təşkil edən təhsilalanlara yönəlmiş yanaşma kimi baxılmamalı və təlim üçün mənfi nəticələri olan damğalamaya yol verilməməlidir.

*2.3. Müəllimlərə davamlı dəstək*

- İnklüziv təhsilin tətbiqi kollektiv tapşırıq kimi qəbul edilməlidir. Bu prosesdə müxtəlif maraqlı tərəflər öz müvafiq vəzifə və öhdəlikləri ilə birlikdə iştirak edir. Sinif müəllimlərinin öz vəzifələrini icrasına dəstək tədbirlərinə müxtəlif peşəkarlar ilə kommunikasiya və komanda işini təmin edən strukturlara, eləcə də mövcud peşəkar inkişaf imkanlarına çıxış daxildir.
- Əsas dəyərlər və bacarıq sahələri davamlı müəllim hazırlığı və peşəkar inkişaf imkanları kimi qəbul edilməlidir. Təlim və məktəbdə mentorluq, fasiləsiz peşəkar inkişaf və təhsildə tərəqqi yolları ilkin müəllim hazırlığı zamanı təşviq olunan əsas dəyərlər ilə uyğunlaşdırılmalıdır. Profil təsvir olunan səriştə sahələri dairəvi təlim yanaşması kimi nəzərdən keçirilməli, gələcək peşə inkişafı fəaliyyətlərində təkrar gözdən keçirilməli, təlim və anlayışların daha dərin səviyyələrində təkrar nəzərə alınmalıdır.
- İnklüziv təhsil sahəsində fəaliyyət göstərməyən və hazırda işləyən müəllimlər üçün peşəkar inkişaf imkanları Profil sənədində təsvir olunan əsas dəyər və səriştələr ilə tənzimlənməlidir.
- Məktəb rəhbərləri üçün peşəkar inkişaf imkanları Profildə təqdim edilən əsas dəyərlərə bağlı prinsiplər ilə tənzimlənməlidir. Məktəblərdə təşkilatçılıq mədəniyyətinin Profildə göstərilən

əsas dəyərlər ilə nə dərəcədə uyğun olmasının müəyyənləşdirilməsində məktəb rəhbərlərinin inklüziya haqqında münasibət və inancları son dərəcə vacibdir.

-

*2.4. İnklüziya prinsipləri ilə uyğunlaşdırılmış hesabatlılıq tədbirləri*

- Müəllimlər və müəllim hazırlığı ilə məşğul olan pedaqoqlar təlim mərkəzləri olan məktəblərdə və müəllim hazırlığı müəssisələrində işləməlidirlər. Belə təhsil mərkəzləri onlara peşəkarlar kimi baxacaq və onların işini bütün səviyyələrdə inklüziv təhsili təşviq edən aydın baxış və ortaq mədəniyyət ilə dəstəkləyəcəkdir.
- Məktəb və müəllim hazırlığı aparan təhsil müəssisələrində inkişaf prosesləri inklüzivliklə bağlı təşkilati siyasət və təcrübəni öyrənməlidir. Şəffaf və keyfiyyəti idarəetmə prosedurları vasitəsilə, müəllimlər və müəllim hazırlığı üzrə pedaqoqlara inklüziv mühitdə ortaq təlim dəyərlərinə dəstək verən təşkilati iş təcrübələrinin qiymətləndirilməsi və inkişafına töhfə məqsədilə dəstək verilməlidir.
- Hesabatlılıq tədbirləri və prosesləri müəllimlərin və müəllim hazırlığı üzrə pedaqoqların təhsilalanlarla işini nəzərə almalıdır. Belə tədbirlər müxtəlif təlim nailiyyətlərini nəzərə almalı və akademik uğurların məhdud izahına yönəlməməlidir.

*Yekun rəylər*

Burada təqdim olunan Profilin tətbiqini dəstəkləyən faktorlar bununla bitmir. Onlar bütün kontekst və vəziyyətlərə müvafiqdir və ölkə kontekstində Profilin tətbiqinin təsirlərini daha təfərrüatlı şəkildə araşdırmağa ehtiyac vardır. Lakin, layihə müzakirələri zamanı layihə ekspertləri və maraqlı tərəflərlə razılaşdırılan təkliflərin qısa xülasəsi burada təqdim ediləcəkdir.

*İnklüziv Müəllimlərin Profili* məktələrdə çalışan müəllimlərin təhsilalanlar ilə işdə nümayiş etdirməli olduqları əsas dəyərləri və bacarıq sahələrini təsvir edir. İnklüziv müəllimlərin işinə təhsil mütəxəssisləri tərəfindən, eləcə də məktəb mədəniyyəti, təşkilatları və bütövlükdə inklüzivliyi təmin edən siyasət çərçivəsi vasitəsilə dəstək verilməlidir. Belə bir model İPT-də aydın şəkildə əks olunmalı və ideal halda ömürboyu təhsilin əsas aspektləri hesab olunan davamlı peşəkar inkişaf imkanları vasitəsilə aydın inkişaf yolunun bir hissəsini təşkil etməlidir.

# PROFİL ÜÇÜN KONSEPTUAL BAZA

*İnklüziv Müəllimlərin Profili* "İnklüziya üzrə müəllim hazırlığı" layihəsi çərçivəsində hazırlanmış və bütün müəllimlər üçün onlara inklüziv təhsildə işləməyə imkan verən əsas dəyər və səriştə sahələrini özündə ehtiva edir. Profilin hazırlanmasında rəhbər kimi üç parametrdən istifadə olunmuşdur:

1. İnklüziya bir sıra əsas dəyərlər əsasında təhsilə prinsip və hüquqa əsaslanan yanaşma sərgiləyir;
2. İnklüziv təhsildə tədris üzrə diqqəti ayrıca səriştələr üzərində cəmləşdirən praktiki və konseptual çətinliklər vardır və Profilin müxtəlif ölkələr və maraqlı tərəflər üçün uyğun olması üçün səriştələrdən istifadə ideyasına geniş yanaşmanın tətbiqinə ehtiyac vardır;
3. Ayrı-ayrı ölkələrdə olan siyasi prioritetlər və sosial siyasət diqqətdən qaçırıla bilməz, lakin inklüziv təhsil və müəllim hazırlığına təsir edən, beynəlxalq və Aİ səviyyəsində tətbiq olunan və bir çox ölkələrin də qəbul etdiyi çərçivə vardır.

Bu parametrlərin hər biri *İnklüziv Müəllimlərin Profili* üçün mühüm konseptual baza kimi aşağıdakı bölmələrdə təsvir edilmişdir.

**İnklüziv təhsilə dəyərlər əsasında yanaşma**

Avropa 2020 Strategiyası çərçivəsində (http://ec.europa.eu/europe2020/index_ en.htm) beş hədəfdən biri təhsilə aiddir. Bu hədəf Avropa təhsil sistemlərində dəyərlərin vacibliyini açıq şəkildə vurğulayır: "2020-ci ilə qədər Avropa səviyyəsində əməkdaşlığın əsas məqsədi üzv dövlətlərdə təhsil və təlim sistemlərinin gələcək inkişafını təmin etmək və aşağıdakılara nail olmaqdır:

a) bütün vətəndaşların şəxsi, sosial və peşə istəklərinin yerinə yetirilməsi;

b) demokratik dəyərlər, sosial birlik, aktiv vətəndaşlıq və mədəniyyətlərarası dialoqun təşviq olunması ilə davamlı iqtisadi tərəqqi və məşğulluğun təmin edilməsi." (Şuranın Yekun Qərarı, 2009, səh. 3).

Təhsil və Təlim 2020 Strateji Çərçivəsində qarşıdan gələn on illik ərzində təhsil və təlim sahəsində dörd strateji hədəfi müəyyən edir. 3-cü strateji məqsəd əsasən aşağıdakı kimidir: bərabərliyin, sosial birliyin və fəal vətəndaşlığın təşviq etdirilməsi - bu məqsəd çərçivəsində dəyərlərin əhəmiyyəti vurğulanır: "Təhsil mədəniyyətlərarası bacarıqları, demokratik dəyərləri, fundamental hüquqlara və ətraf mühitə hörməti aşılamalı, eləcə də bütün gəncləri fərqli keçmişə malik həmyaşıdları ilə qarşılıqlı əlaqə yaratmağa hazırlamalıdır" (səh.4).

2008-ci ildə İnklüziv Təhsilə dair Beynəlxalq Konfransın hesabatında iddia olunur ki: "İnklüziv təhsil qurulacaq cəmiyyətin və inkişaf etdiriləcək ideal şəxsin növünə dair bir sıra konsepsiya və dəyərlərə əsaslanır. Əgər biz daha dinc və fərqliliklərə hörmət edən inklüziv cəmiyyətlərə sahib olsaq, o zaman tələbələrin də bu dəyərləri təhsildə, eləcə də məktəblərdə və qeyri-formal mühitlərdə inkişaf etdirmək və yaşatmaq imkanları olacaqdır" (Səh. 11).

Göründüyü kimi, inklüzivlik sadəcə anlaşma və çatışmazlıqların aradan qaldırılması kimi dar düşüncədən artıq uzaqlaşılmış və hazırda inklüzivlik daha çox gender, etnik mənsubiyyət, sinif, sosial şərait, səhiyyə və insan hüquqlarını əhatə edən universal məsələ kimi qəbul edilir (Ouane, 2008).

Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanın (2006) 24-cü bəndi əlilliyi olan insanların təhsil almaq hüququna malik olduğunu vurğulayır. Konvensiyada daha sonra bildirilir ki: "İşti-

rakçı dövlətlər əlilliyi olan şəxslərin təhsil almaq hüququnu tanıyırlar. İştirakçı dövlətlər bu hüququ ayrı-seçkilik olmadan və bərabər imkanlar əsasında həyata keçirmək məqsədi ilə inklüziv təhsil sisteminin və ömürboyu təhsilin bütün səviyyələrdə aşağıdakılara istiqamətlənməsini təmin edir: İnsan potensialının tam inkişafı, ləyaqət və özünəinam hissi və insan hüquqlarına, əsas azadlıqlara və insan müxtəlifliyinə hörmətin gücləndirilməsi" (səh. 17).

Bununla belə, YUNESKO və YUNİSEF (2007) belə iddia edir ki: "Təhsil hüququ təhsilə universal səviyyədə əlçatanlığın təmin edilməsi öhdəliyinin, o cümlədən ucqarlarda yaşayan uşaqların təhsilə əlçatanlığı istiqamətində lazımi tədbirlərin görülməsini tələb edir. Amma uşaqların məktəbə əlçatanlığının təmin edilməsi kifayət deyil; təhsilin bəşəriyyətin iqtisadi və sosial məqsədlərinə nail olmasına və məsuliyyətli və aktiv vətəndaşlığı formalaşdıran bacarıqlara, biliklərə, dəyərlərə və münasibətlərə nail olmağa imkan yaradacağına dair təminat yoxdur" (səh. 27)

Bütün təhsilalanlar üçün hüquqlara əsaslanan, inklüziv təhsil vahid bir yanaşmanın tətbiqini tələb edir və bu, müəllimlərdən məzmunun çatdırılmasından daha çox işlər görməyi tələb edir. YUNESKO-nun (2008) bəyanatına görə: 'İnklüzivliyə doğru hərəkət istiqamətində təhsilalma hüququna əsaslanan yanaşmanın tətbiqi geniş məktəb sistemi islahatlarının aparılmasını tələb edir. Bu islahatlar aşağıdakıları əhatə edir: konstitusiya təminatları və siyasətinə, təhsil proqramlarına, müəllimlərin təlimləndirilməsi sistemlərinə, materiallarına, təhsil alma mühitlərinə, metodologiyalarına, resurslarına düzəlişlərin edilməsi, və s. Hər şeydən əvvəl bu, bütün sistem boyu bütün insanların yanaşmalarında müxtəliflik və fərqlilikləri qəbul etmək və onlara problemdən daha çox imkanlar kimi baxmaq üçün dəyişiklik edilməsini tələb edəcəkdir" (səh. 29).

İnklüziv təhsil icbari və ali təhsildə, eləcə də müəllim hazırlığında müxtəlif siyasət və icra yanaşmalarına təsir göstərən geniş bir anlayışdır. İnklüziv təhsilin məqsədinə hər kəsi bərabər qiymətləndirən və məktəbləri icma resursları kimi qəbul edən parametrlər və sistemlər çərçivəsində nail olunur. İnklüziv təhsil bütün təhsilalanları əhatə edir və məqsədi fərdlərin təhsildə iştirakına və cəmiyyətdən kənarlaşmasının azaldılmasına nail olmaqdır.

Qısaca olaraq qeyd edək ki, inklüziv təhsil əsasən aşağıdakı bir sıra əsas dəyərlərə əsaslanan prinsipial, hüquqa əsaslanan yanaşmadır: bərabərlik, iştirakçılıq, inkişaf, icmaların saxlanması və müxtəlifliyə hörmət. Müəllimin daşıdığı dəyərlər onun hərəkətlərinin əsas göstəricisidir. Əlilliyə dair Dünya Hesabatında (2011) göstərilir ki: "Fərqli ehtiyacları olan uşaqların təlimləndirilməsində inamlı və bacarıqlı olmaları üçün müəllimlərin müvafiq təhsil alması vacibdir" (səh. 222). Hesabatda bu təlimdə yalnız bilik və bacarıqlara deyil, münasibətlərə və dəyərlərə diqqət yetirilməsinin vacibliyi vurğulanır.

Müəllimlərin Peşəkar İnkişafına əsaslanan Birgə (həmyaşıdlarla) Təhsil Fəaliyyəti (2011) təklif edir ki, tədrisin hər aspekti tam şəkildə təsvir və müəyyən edilə bilməz. Müəllimin peşəkar dəyərləri, təzahürü və münasibətləri kimi aspektlər daha ölçüləbilən və sayılabilən aspektlər kimi vacib ola bilər." (səh.7). Hesabatda bildirilir ki, Avropa daxilində müəllimlərin bacarıqlarının komponentlərinə daha çox aşağıdakılar daxildir: məlumatlar, bacarıqlar və dəyərlər (səh. 10).

İnklüziv təhsil üzrə müəllim bacarıqlarının başlanğıc nöqtəsinin əsas dəyərlər olması ilə bağlı razılıq əldə edilmişdir. TE4I layihəsi çərçivəsində müəyyən edilmiş bütün təhsil alanlar üçün tədris və təlimlə bağlı dörd əsas dəyər – təhsil alanların müxtəlifliyinin dəyərləndirilməsi, bütün təhsil alanlara dəstək göstərilməsi, əməkdaşlıq və şəxsi peşəkar inkişaf – bütün müəllimlər üçün biliklərin əldə edilməsi, anlayışların inkişaf etdirilməsi və inklüziv təhsil mühitində çalışmaq üçün lazım olan bacarıqların tətbiqi baxımından təməl dəyərlər hesab edilir.

Layihə çərçivəsində bütün əsas dəyərlərin aşağıdakı qaydada olması qeyd olunur:
- dəyərlər müəllimlərin hərəkətləri ilə sübuta yetirilə bilən prinsiplərdir;
- dəyərlər müəllim hazırlığı kurslarında təqdim edilən təlim imkanları nəticəsində "nəzəriyyə ilə zənginləşdirilmiş praktiki biliklər"dir

**Səriştə sahələri müəyyən edilmiş yanaşma kimi**

İnklüziv təhsil sahəsində çalışan bütün müəllimlər üçün vacib olan əsas dəyərlər bütün müəllimlərin inklüziv təhsil sahəsində işləmək üçün ehtiyac duyduğu vacib səriştələri müəyyənləşdirilməsi üçün əsas kimi istifadə edilmişdir. Layihədə müəllimlərin bacarıqlarına diqqətin verilməsi Agentliyin ölkə nümayəndələri tərəfindən tələb edilmiş, milli və beynəlxalq səviyyələrdə aparılan işlərlə dəstəklənmişdir.

Beynəlxalq səviyyədə, İƏİT-in 2005-ci il üçün "*Müəllimlərin rolu vacibdir*" adlı hesabatında tədrisin keyfiyyəti və səmərəliliyinə əhəmiyyətli təsir göstərən bir sıra şəxsi bacarıqlar müəyyən edilir (səh. 100). Müəyyən edilmiş potensial bacarıqlarda əsas diqqət mövzu üzrə biliklərə və bir sıra çarpaz bacarıqlara yönəlmişdir (məsələn, ünsiyyət, özünü idarəetmə, təşkilati və problem həlli bacarığı).

Layihəyə qatılan ölkələrin əksəriyyəti müəllimin bacarıqlarını ya ali təhsil yaxud da milli siyasət səviyyəsində nəzərdən keçirir. İPT üzrə bacarıqlardan istifadənin xülasəsi Əlavə 1-də verilmişdir. (Bu məlumat layihə ölkəsinin təqdim etdiyi hesabatlar əsasən xülasələşdirilmiş və aşağıdakı mənbədən əldə edilə bilər: http://www.european-agency.org/agency-projects/teachereducation-for-inclusion/country-info)

Buna baxmayaraq, bacarıqların və ya onların İPT-də tətbiqi ilə bağlı ümumi anlayışların ölkələr arasında çox fərqləndiyini etiraf etmək lazımdır. Layihə çərçivəsində, müxtəlif ölkələr ayrı-ayrı əsas bacarıqları yalnız müəllimlər üçün müəyyənləşdirməmiş, həm də bacarıqları müxtəlif yollarla izah etmişdir.

TE4I layihəsinin analitik hesabatında aşağıdakılar təklif olunur: *"bacarıqlar" və "standartlar"* terminləri bir-birini əvəz edə bilməz və layihə müzakirələri zamanı, TE4I layihəsi çərçivəsində istifadə üçün ekspertlər ilə aşağıdakılar razılaşdırılmışdır:

*Standartlar* dedikdə ümumilikdə tələbələrin/müəllimlərin/ müəllim hazırlayan kursların əsasında qiymətləndirmə apardığı meyarlar nəzərdə tutulur – summativ nəticələr araşdırma proqramının sonundadır.

*Bacarıqlar* isə müxtəlif mühit və vəziyyətlərdə mütərəqqi ustalıq göstərən İPT tələbələri və müəllimləri ilə zamanla inkişaf edir. Belə ki, onlar həm İPT üçün baza rolunu oynayır, həm də davamlı peşəkar inkişaf üçün təməl hesab edilir (TE4I layihəsinin analitik hesabatı, 2011, səh. 46).

Layihə müzakirələri zamanı bütün ölkə ekspertləri "tədrisetmə üçün təcrid olunmuş bacarıqlara" diqqət yetirilməsində praktiki və konseptual çətinliklərin olduğuna dair razılığa gəlmiş və bu məsələdə diqqətli olmağı vurğulamışdır:

- konkret vəziyyətlər üçün xüsusi bacarıqların müəyyənləşdirilməsi və kataloqlaşdırılmasında iştirakçı ölkələrdə artıq görülmüş işlərin təkrar olunması;
- müəllimlərin mexaniki hesab edilə biləcək həddən artıq sadə profilinin işlənib hazırlanması;
- bu sahədə ölkə səviyyəsində işin aparılması üçün əsas kimi qəbul edilə bilməyən preskriptiv vasitənin təklif edilməsi.

*İnklüziv Müəllimlərin Profilində* hazırlanan və istifadə olunan model çoxşaxəli "səriştə sahələri" anlayışına əsaslanır.

Bu profildə təsvir olunan inklüziv təhsilə aid əsas dəyərlərlə bağlı olan səriştə sahələri üç elementdən ibarətdir:

- yanaşmalar və inanclar;

- bilik və anlayışlar;
- bacarıq və qabiliyyətlər.

Müəyyən bir münasibət və ya inanc bu biliklərin praktiki şəraitdə həyata keçirilməsi üçün müəyyən bilik, anlayış səviyyəsini və daha sonra isə bacarıqları tələb edir. Müəyyən edilmiş hər bir sahə üçün əsas şərtlər, bilik və bacarıqlar təqdim olunur.

Bu yanaşma Riyanın (2009) tədqiqatına əsaslanır. Belə ki, o öz əsərində münasibətləri "çoxölçülü xüsusiyyətlər" kimi təsvir edir. Ən əsası Şulman (2007), peşə təlimini baş (bilik), əl (bacarıq və ya əməl) və ürəyin (münasibət və inanc) məşq etdirilməsi baxımından təsvir edir.

Ən vacibi isə, qəbul edilmiş yanaşma 2011-ci ildə ölkə tanışlıq turlarında iştirak edən bir sıra məktəbyaşlı təhsilalanların fikirlərinə uyğun gəlir. Gənclərə aşağıdakı suallarla müraciət olunmuşdur: "yaxşı müəllim nədir?" və "yaxşı müəllimlər sizə daha yaxşı öyrənməkdə kömək edən nələri edirlər?

Onların cavabları qlobal tədris qabiliyyətlərinin əhəmiyyəti haqqında fikirlərini göstərdi. Onların cavablarına yaxşı müəllimlərin "xeyirxah" olması və "yumor hissi"nə malik olması kimi ifadələr daxildir; müəllimlər "yaxşı şeyləri izah edirlər" və "bizim üçün qruplarda işləməyə imkan verən" bir çox fəaliyyətlər təşkil edirlər. Onlar bizə fəaliyyətimiz barədə rəy bildirirlər, amma müəllimlərin əksəriyyəti "öyrənməni əyləncəli və maraqlı edir!"

Bir səviyyədə bunlar son dərəcə sadə fikirlərdir, lakin inklüziv təhsil sahəsində müəllim hazırlayan hər kəs üçün güclü və kompleks ismarış verirlər - tədris summativ imtahanlar vasitəsilə asanlıqla qiymətləndirilə biləcək bacarıq və biliklərin yoxlama siyahısı üzrə bölünə bilməz.

Profildə təqdim olunan bacarıq sahələri müəllim işinin bütün aspektlərini əhatə edir ki, bu da ölkənin aşağıdakı bacarıqlara diqqət yetirməsi zamanı nəzərə alınır – tədris, əməkdaşlıq, məktəb və sistem səviyyələrində bacarıqlar. Ancaq bacarıq sahələrinin təqdim olunması inklüziv təhsil üzrə razılaşdırılmış dörd əsas dəyərlərə əsaslanır və hər bir bacarıq sahəsi bir -biri ilə əlaqəli və yüksək səviyyədə qarşılıqlı asılı hesab edilir.

**Məktəb və müəllim hazırlığı üçün Avropa siyasətinin prioritetlərinə keçid**

*İnklüziv Müəllimlərin Profili* Avropa səviyyəsində siyasət təşəbbüslərinin üç sahəsinə birbaşa bağlıdır: birincisi, ömürboyu öyrənmə üçün əsas bacarıqlar; ikincisi, ali təhsil çərçivəsində səriştəyə əsaslanan yanaşmalar; və nəhayət, müəllim hazırlığı siyasətinin təkmilləşdirilməsi.

Bütün vətəndaşlardan ömürboyu öyrənmə kontekstində tələb olunan əsas bacarıqlar Avropa Parlamentinin və Şurasının 18 dekabr 2006-cı il tarixli Tövsiyəsində təsvir edilmişdir. Səkkiz əsas səriştə müəyyən edilmişdir:

1. Ana dili ilə ünsiyyət;

2. Xarici dillərdə ünsiyyət;

3. Riyazi səriştə, elm və texnologiyada əsas səriştələr;

4. Rəqəmsal səriştə;

5. Öyrənməyi öyrənmək;

6. Sosial və vətəndaş səriştələri;

7. Təşəbbüskarlıq və sahibkarlıq;

8. Mədəni maariflənmə və özünüifadə.

Bütün təhsilalanlar üçün bu səkkiz əsas səriştənin aktuallığı Təhsil və Təlim 2020 Strateji Çərçivəsinin 3-cü strateji məqsədində vurğulanır: "Təhsil və təlim siyasəti bütün vətəndaşlara şəxsi, sosial

və iqtisadi şəraitdən asılı olmayaraq, işlə bağlı bacarıqlar, eləcə də işə götürülmək üçün lazım olan əsas qabiliyyətləri əldə etməyə, yeniləməyə və inkişaf etdirməyə, və daha çox öyrənmə, aktiv vətəndaşlıq və mədəniyyətlərarası dialoqu inkişaf etdirməyə imkan verir" (səh.4).

Məktəb təhsili zamanı əsas bacarıqların inkişaf etdirilməsi ali təhsil sahəsində bacarıqlara əsaslanan yanaşmalardan istifadə ilə sıx bağlıdır. Bolonya prosesi çərçivəsində, Birgə Keyfiyyət Təşəbbüsünün qeyri- formal qrupununun 2003-cü ilin dekabr hesabatı ali təhsilə yalnız nəticəyə əsaslanan yanaşmanı dəstəkləmiş, həm də bacarığa əsaslanan yanaşmanın tətbiqi tövsiyyə olunmuşdur, çünki belə yanaşma: "... təhsilalanlara öz biliklərini və anlayışlarını işlərinə peşəkar yanaşmanı tələb edən tərzdə tətbiq etməyə imkan verir" (səh. 33).

Berqan və Damian (2010) Avropa Şurasının hesabatında iddia edirlər ki, təhsilalanların bacarıqlarının inkişaf etdirilməsinə ali təhsil missiyasının tərkib hissəsi kimi baxılmalıdır – inkişaf etdirilməli bacarıqlar ali təhsilin məqsədlərinin nə hesab edilməsindən asılı olaraq müəyyən edilir. Onlar bildirirlər ki, "oxşar bacarıqlar" bütöv şəxsin təlimləndirilməsinin vacibliyini vurğulayır; təhsil həm bilik və bacarıq, həm də dəyərlər və baxışların əldə edilməsi kimi qəbul edilməlidir.

Müəllim hazırlığının bir sıra təsirləri mövcuddur: müəllimlik ixtisası üzrə təhsil alan tələbələr bacarıqlara əsaslanan yanaşmadan istifadə etməklə təhsil almalıdırlar, çünki bu, onların İPT-ni daha effektiv edəcək və onları sinifdə bütün təhsil alanların bacarıqlar əsasında təlimləndirməyə hazırlayacaqdır. TE4I layihəsinin analitik hesabatında (2011) belə qeyd olunur: "Yeni müəllimlər tədris və təlimin çətinliyini və onlara təsir edən bir çox amilləri başa düşməlidir. Onlar anlamalıdırlar ki, bütün təhsilalanlar proqramın sadəcə passiv iştirakçıları kimi deyil, aktiv iştirakçıları olmalıdırlar" (səh. 68).

2007, 2008 və 2009-cu illərdən etibarən Şuranın son üç qətnaməsi üzv ölkələrdə Təhsil Nazirlərinin müəyyən etdiyi kimi müəllimlərin təhsilini təkmilləşdirmək üçün prioritetləri müəyyənləşdirmişdir. Bunlar 2010-cu ildə Paul Holdsworth tərəfindən (Avropa Komissiyasının Təhsil və Mədəniyyət üzrə Baş Direktorluğu) hazırlanmış "Müəllimin Keyfiyyətinin Təkmilləşdirilməsi: Avropa Birliyinin Siyasət Gündəmində" adlı sənəddə qısa xülasə şəklində verilir. Tam sənəd, Əlavə 2-də təqdim edilmişdir.

Şuranın üç qətnaməsində aşağıdakı 10 prioritet siyasət sahələri müəyyən edilə bilər:

1. Peşəkar dəyərləri və münasibətləri təbliğ etmək;
2. Müəllimin səriştəsini artırmaq;
3. Təhsil keyfiyyətinin yüksəldilməsi üçün effektiv işə qəbul və seçim;
4. Bütün yeni müəllimlər üçün təlim proqramlarını təqdim etmək;
5. Bütün yeni müəllimlər üçün ilkin təlimatlandırmanı təmin etmək;
6. Bütün müəllimlərə mentorluq dəstəyi göstərmək;
7. Davamlı peşəkar inkişafın keyfiyyətini və miqdarını artırmaq;
8. Məktəb rəhbərliyi;
9. Müəllim hazırlığı aparan pedaqoqların keyfiyyətini artırmaq;
10. Müəllim hazırlığı sistemini təkmilləşdirmək.

2010-cu ildə ölkə tanışlıq səfərləri zamanı, bu sənəd bütün layihə mütəxəssisləri ilə təklif olunan Profil ilə əlaqədar müzakirə edilmişdir. Bu müzakirələrə görə, Profil İPT-nin keyfiyyətinin yaxşılaşdırılmaq, peşə dəyərlərini və münasibətlərini inkişaf etdirmək və müəllimlərin bacarıqlarını artırmaq üçün Aİ-nin siyasət prioritetləri ilə əlaqələndirilə bilər. Ancaq burada daha üç bənd qeyd edilməlidir:

- *İnklüziv Müəllimlərin Profilində* göstərilən inklüziv təhsillə bağlı əsas dəyərlər bütün bu siyasət prioritetlərinin əsasını təşkil edir;
- *İnklüziv Müəllimlərin Profilində* göstərilən bacarıq sahələri bu siyasət prioritetlərinin hamısı ilə bu və ya digər şəkildə əlaqəlidir və heç bir ziddiyyət yaratmır.
- *İnklüziv Müəllimlər Profili* müəllimlərin təhsili ilə bağlı Avropa səviyyəsində siyasət təşəbbüsləri üçün lazım olan digər prioritetləri müəyyənləşdirir - ən əsas da bütün təhsil alanları dəstəkləyən bir yanaşma kimi insan hüquqlarını və inklüziv təhsil məsələlərini.

*İnklüziv Müəllimlərin Profilində* təsvir olunan əsas dəyərlər və bacarıq sahələri yalnız təcridolunma riski ilə üzləşənlər üçün deyil, bütün təhsilalanlar üçün faydalıdır və Təhsil və Təlimin Sosial Aspektlərinə dair Şuranın Qətnaməsi (2010) dəstəklənir: "Xüsusi ehtiyacları olan şagirdlərin digərləri ilə qaynayıb-qarışması üçün  tələb olunan şərtlərin yaradılması bütün təhsilalanlara fayda verir. Fərdiləşdirilmiş yanaşmalardan istifadənin artırılması, o cümlədən fərdiləşdirilmiş təlim planları və təlim prosesini dəstəkləmək üçün fərdi tədris planları, fərdi yanaşmaların istifadəsinin artırılması, müxtəlifliyin idarə olunması və ondan faydalanmaq üçün müəllim bacarıqlarının artırılması, korporativ tədris və təhsildən istifadənin təşviq olunması, təhsilə çıxış imkanlarının və iştirakçılığın genişləndirilməsi hamı üçün keyfiyyətin artmasının yollarıdır" (səh. 5)

# PROFİLİ TƏKMİLLƏŞDİRMƏK ÜÇÜN METODOLOGİYA

Layihə çərçivəsində 3 illik müddət ərzində profil sənədinin hazırlanması ilə bağlı bir sıra tapşırıqlar yerinə yetirilmişdir. Bu əsas fəaliyyətlər bu bölmədə tam şəkildə təsvir olunur:

- Profil çərçivəsinin və məzmununun inkişaf etdirilməsi üçün atılan addımların dəqiq sənədləşdirilməsi;
- Bu sənəddə təqdim olunan Profilin hazırlanmasında verdiyi dəyərli töhfəsinə görə layihə ekspertlərinə, tanışlıq səfərinin həyata keçirildiyi 14 ölkənin ev sahibliyi edən şəxslərinə, maraqlı tərəflərin 400-dən çox nümayəndəsinə təşəkkürün bildirilməsi.

Bu bölmədə bu səbəbdən Profilin hazırlanması prosesinin qısa xülasəsini əks etdirən təsviri məlumatlar verilir.

2009-cu ilin sonunda agentliyin heyəti ölkə üzrə layihə ekspertləri ilə müzakirələrin stimullaşdırılması üçün ilkin sənədin layihəsini hazırlamışdır. Sənəd inklüzivlik üzrə müəllimlərin ilkin təhsili üçün onların bacarıqlarına dair bir sıra əsas bəyanatlar və fikirləri özündə əks etdirdi. Layihə məsləhətləşmə qrupundan daxil olan müvafiq tədqiqat və siyasət məlumatlarının nəzərdən keçirilməsinə əsaslanırdı.

2010 və 2011-ci illər üçün bir sıra ölkələrə səfərlər planlaşdırılıb. Bütün iştirakçı ölkələr TE4I layihəsinin əsas mövzularına dair səfərlərin keçirilməsinə dair təkliflərini təqdim etməyə dəvət olunmuşdur. Ölkələrin təqdim etdiyi təkliflər daha sonra Layihə məsləhətçi qrupu və layihə heyəti qrupu tərəfindən nəzərdən keçirilmiş və əvvəlcədən təyin edilmiş meyarlara uyğun olaraq səfərlər planlaşdırılmışdır. Bura təklif olunan mövzunun uyğunluğu, ilkin müəllim hazılığına dair müxtəlif yanaşmaları və ölkələrin balanslaşdırılmış coğrafi təmsilçiliyini araşdırma imkanları daxildir.

2010-cu ilin yazında beş ölkədə həyata keçirilən tanışlıq səfərləri zamanı, Profil sənədinin layihəsi, ev sahibliyi edən ölkənin qrupları tərəfindən ziyarət üçün əsas mövzular kimi müəyyən edilmiş bacarıqlara əsaslanan yanaşmalardan istifadə ilə bağlı xüsusi məsələlər ilə birlikdə müzakirə edilmişdir. Ziyarət olunan ölkələr və əsas mövzular aşağıdakılar idi:

*Belfast, Birləşmiş Krallıq (Şimali İrlandiya):* inklüziv təhsil müəllimlərinin inkişaf etdirilməsi üçün Şimali İrlandiya Müəllim Bacarıqlarının araşdırılması, müəllimlərin bu bacarıqları ən yaxşı şəkildə istifadə etmələri və həyata keçirmələrinə diqqət yetirilməsi, təhsil sistemində lazım olan daha geniş potensial imkanlarının nəzərə alınması.

*Porto, Portuqaliya:* səriştələr profilinin yanaşma və dəyərlərin inkişafına, həmçinin inklüziv təhsil üçün zəruri olan bilik və bacarıqlara necə kömək edə biləcəyinin araşdırılması

*Eger, Macarıstan:* səriştələr profilində lazım olan məzmun sahələrinin nəzərə alınması, xüsusilə bu cür profildə bilik və bacarıqların inkişaf etdirilməsi üçün ilkin tədris təhsilinin hansı formasının hazırlanmasının nəzərə alınması.

*Boras, İsveç*: tələbələrin müəllim pedaqoqlar tərəfindən inklüziv müəllim olmaq üçün necə hazırladıqlarının araşdırılması xüsusilə tələbələri üçün nümunə olmaq üçün müəllim hazırlayan pedaqoqların inklüziv yollarla necə işləyə biləcəyini araşdırma.

*Utrext, Hollandiya*: inklüziv təhsil üçün inkişaf siyasəti təşəbbüsləri ilə bacarıq profillərinin nə dərəcədə uyğun olduğunu araşdırma. Xüsusilə, bu cür profilin həyata keçirilməsi üçün müəllimlərin təhsilinə və inklüziv təhsilə dair hansı siyasət çərçivələrinin araşdırılmasına ehtiyac olduğunun araşdırılması.

2010-cu il üçün bütün səfərlərə dair məlumatlar aşağıdakı mənbədən əldə edilə bilər: http://www.european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion

Bütün 5 görüşə aşağıdakı tədbirlər daxil idi:

- Seçilmiş mövzu ilə bağlı ev sahibliyi edən ölkə qrupunun təqdimatları və onların ölkələrinin təcrübəsinə dair nümunələr;
- Bu məsələ ilə bağlı layihə ekspertlərinin hər birinin öz ölkələri perspektivindən tanışlıq səfəri üçün qısa təqdimatları;
- Layihə ekspertləri və ölkənin müxtəlif maraqlı tərəfləri ilə interaktiv müzakirələr;
- Profil sənədinin hazırlanması ilə bağlı əsas mesajları nəzərdən keçirmək məqsədilə layihə ekspertləri üçün açıq müzakirə sessiyaları.

Ölkə üzrə layihə ekspertləri ilə yanaşı, 100-dən çox təhsil işçisi, o cümlədən hökümət rəsmiləri, müəllim pedaqoqlar, tələbələr, məktəb işçiləri, mütəxəssislərə dəstək heyəti və icma qrupu nümayəndələri bu 5 səfərdə iştirak etmişdir.

5 səfərdən yaranan əsas ismarıclar aşağıdakılara yönəldilmişdir:

- Səriştələr yoxlama siyahısı kimi nəzərdən keçirilə bilməz;
- İPT-də nəzərə alınmalı olan ümumilikdə əsas dəyərlərin və yanaşmaların, xüsusi olaraq inklüziv təhsilin vacib rolu.

2010-cu ildə ölkə üzrə tanışlıq səfərləri əsasında 2010-cu ilin payızında Sürixdə keçirilən tam layihə iclasında müzakirə üçün təkmilləşdirilmiş və genişləndirilmiş sənəd təqdim edilmişdir. Bu yenidən işlənmiş sənəd əvvəlki versiyadan iki şəkildə fərqlənmişdir. Birincisi, təklif olunmuşdur ki, Profilin məzmunu bütün müəllimlər üçün əsas dəyərlərə əsaslansın (həmin vaxt üçün təqdim olunmuşdur). İkincisi, ayrıca bacarıqları təqdim etmək əvəzinə, üç elementdən - münasibətlərdən, biliklərdən və bacarıqlardan ibarət olan səriştə sahələri təklif olunsun.

Bu proseslər bütün layihə ekspertləri tərəfindən razılaşdırılıb və sənədin xüsusi məzmunu ilə bağlı onların ətraflı rəylərindən istifadə edərək Profilin yenilənmiş versiyası hazırlanıb. Bu versiya hər bir dəyərin əsasını qoyan bir sıra konkret sahələrlə yanaşı, dörd əsas dəyərlər çərçivəsinə əsaslanır.

Bu sonrakı layihə 2011-ci ildə həyata keçirilmiş doqquz ölkə tanışlıq səfərləri zamanı ölkələrdə bir sıra "yoxlama" fəaliyyətinin əsasını təşkil etmişdir. Layihə fəaliyyətləri çərçivəsində yoxlama dedikdə, təklif olunan dəyərlər və səriştə sahələri, habelə Profil sənədinin xüsusi məzmunu üzrə maraqlı tərəflərin razılığı nəzərdə tutulur.

Mart ayı ərzində səfərlər Lefkoşa (Kipr), Valletta (Malta) və Stavanger (Norveç); aprel ayında Riqa (Latviya) və Rovaniemi (Finlandiya); və 2011-ci ilin may ayında London (Böyük Britaniya, İngiltərə), Pontevedra (İspaniya), Esbjerg (Danimarka) və Linz (Avstriya) şəhərlərində keçirilmişdir.

2011-ci ilin bütün səfərlərinə dair məlumatlar aşağıdakı mənbələrdən əldə edilə bilər: http://www.european-agency.org/agency-projects/Teacher-Education-for-Inclusion/country-study-visits

Səfərlər zamanı müzakirələrə hazırlıqla əlaqədar bütün iştirakçılara (ölkənin maraqlı tərəfləri daxil olmaqla) görüşdən əvvəl Profil sənədinin nüsxələri - tam və ya yekun şəklində - təqdim edilmişdir. Bundan əlavə, bütün layihə ekspertlərinə öz ölkələrinin bacarıqlarla bağlı yanaşmalarını təqdim etmək xahiş edilmişdir.

2011-ci il ölkə səfərlərinin əsas məqsədi müəllimlərin təhsilində müxtəlif maraqlı tərəflərdən *İnklüziv Müəllimlərin Profilinin* məzmunu və potensial faydası ilə bağlı müxtəlif rəylər toplamaq idi. Bu fəaliyyətlərə aşağıdakılar daxildir: məktəblərdə və siniflərdə səfərlər və müşahidələr; müəllimlərin təhsil müəssisələrinə səfərləri, İPT tələbələrinin müşahidələri, İPT üçün ölkə siyasəti və təcrübəsi barədə təqdimatlar.

Ən başlıcası, bütün səfərlərdə iştirak edən layihə ekspertləri və ölkənin İPT-dəki maraqlı tərəfləri arasında müxtəlif müzakirələr aparılmışdır. Bu müzakirələr çox interaktiv həyata keçirilmiş və fokus

qruplar şəklində keçirildiyindən maraqlı tərəflərin fikir və rəylərini əldə etmək mümkün olmuşdur.

Bu müzakirələr müxtəlif formalarda keçirilmişdir: kiçik qruplar ilə söhbətlər forması, 50-dən çox maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə plenar müzakirələr.

Ölkənin layihə ekspertləri ilə yanaşı, doqquz səfərdə 300-dən çox iştirakçı iştirak edib. Bunlara aşağıdakılar daxildir:

- Təhsilalanlar (xüsusi təhsil ehtiyacları olan və olmayan), valideynləri və ailə üzvləri;
- Yerli icma nümayəndələri;
- Sinif müəllimləri, məktəb rəhbərləri, mütəxəssis müəllimlər və köməkçi heyət;
- Multidisiplinar komanda üzvləri (o cümlədən, məktəb psixoloqları, sosial işçilər və səhiyyə mütəxəssisləri);
- Məktəb müfəttişləri, yerli sahə administratorları və hökumət nümayəndələri;
- Yeni müəllimlər;
- Təhsil alanlar – həm İPT tələbələri, həm ixtisasartırma təhsili alan müəllimlər;
- İnklüziv təhsil, xüsusi təhsil və fənn proqramları üzrə tədris aparan ali təhsil müəllimləri;
- Müəllim hazırlığı aparan təhsil müəssisələrinin rəhbər vəzifəli şəxsləri (rektorlar, dekanlar, kafedra müdirləri və müəllimlər);
- Mərkəzi hökumətin inklüziv təhsil və müəllim hazırlığı üzrə rəhbər şəxsləri.

2011-ci ildə ölkə tanışlıq səfərlərinə bir sıra mühüm elementlər daxil edilmişdir. Bu elementlər Profil sənədinin təsdiqlənməsinə dəstək verdi və bununla da maraqlı tərəflərin hər birini görüşlər və müzakirələrə cəlb edildi. Bütün səfərlərdə profil sənədi ilə bağlı rəylərin toplanması üçün "şablon" forma bütün layihə ekspertləri və əsas maraqlı tərəflər tərəfindən tamamlanmışdır. Bu şablon Əlavə 3-də verilmişdir.

Bundan əlavə, səfərlər məlumatların toplanması ilə bağlı iki mərhələyə bölünmüşdür:

*Təsdiq üçün məlumatların toplanması*: razılaşdırılmış şablondan istifadə edərək, Profil haqqında rəylər Kipr, Malta, Norveç, Latviya və Finlandiya səfərləri zamanı toplanmış və səfərlər zamanı ortaya çıxan mövzular və fikirləri müəyyən etmək üçün layihə heyəti qrupu tərəfindən təhlillər aparılmışdır.

*Məlumatların yoxlanması*: ilk səfərlər zamanı meydana gələn əsas tendensiyalar və mesajlar Danimarka, İspaniya, Birləşmiş Krallıq və Avstriyaya səfərlərdə iştirakçılara təqdim olunmuşdur. İştirakçılara, tapıntıların yoxlandığını və ya müzakirə dildiyini araşdırmaq üçün iştirakçılardan səfərlərin ilk mərhələsində müəyyən edilmiş tendensiyalarla bağlı fikir bildirmələri xüsusi olaraq xahiş olunmuşdur.

Əsasən rəylər və şərhlər üçün şablon formadan istifadə edərək, ümumilikdə 71 yazılı cavab toplanmış və təhlil edilmişdir: informasiyanın təsdiqlənməsi mərhələsində 37, informasiyanın yoxlanması doğrulama mərhələsində isə 34.

İnformasiya toplama fəaliyyətinin iki mərhələsinin bu nümunəsi, eləcə də səfərlərin sabit strukturu və bu səfərlərdə iştirak edən müxtəlif iştirakçılar göstərdi ki, məlumatların (və ya verilənlərin) trianqulyasiyasının (çarpaz yoxlanması) müxtəlif formalarından istifadə oluna bilər. Denzin (1979) trianqulyasiya metodlarının ilkin olaraq dörd növünü müəyyən etmişdir. Bu növlər daha sonra Cresvell və Miller (2000) tərəfindən müzakirə edilmişdir. Bu üsullardan ikisindən istifadə olunmuşdur: məlumatların triangulyasiyası (məlumatların toplanması üçün eyni proses 9 dəfə təkrar olunur, nəticədə 9 məlumat toplusu əldə edilir) və müxtəlif tədqiqatçı informasiya triangulyasiyası (iki layihə meneceri və eyni məlumat toplama vasitələrindən istifadə edən bütün 9 ekspert qrupu).

Doqquz səfər zamanı əldə edilmiş məlumatların təhlili aşağıdakı əsas nəticələrə gətirib çıxarmışdır:

- Dörd əsas dəyər və qabiliyyət sahələrinə əsaslanan Profilin təməli razılaşdırılmışdır;
- Sənədin layihəsindəki bütün bacarıq sahələri səfərlər zamanı razılaşdırılıb. Ancaq müzakirələ-

rin əsas diqqəti daha çox bacarıq sahəsinin əlavə edilməsinə yönəldilmişdir;
- Profili həyata keçirmək üçün bir sıra məsələlər vurğulanmışdır. Həmin dövrdə hazırlanacaq Profil layihəsində olan materialın ayrıca bölmələrlə təkrar işlənməsi  təklif olunmuşdur.

2011-ci ildəki səfərlərdən əldə edilən müxtəlif töhfələr, Profilin yekun layihəsinin hazırlanmasına gətirib çıxardı. Bunlar rəylərin əldə edilməsi üçün 2012-ci ilin əvvəlində bütün Agentliyin nümayəndələrinə və təyin olunmuş layihə ekspertlərinə göndərilmişdir. Son layihə həmçinin 2012-ci ilin payızında Brüsseldə keçirilən TE4I layihəsinin təqdimat konfransında təqdim edilmişdir.

Tədbirdə, mətnə rəy bildirmək üçün son fürsəti olan layihə ekspertlərinə əlavə olaraq, Profilin potensial dəyərinə dair strukturlaşdırılmış fikirlər YUNESKO və YUNISEF AMA / MDB nümayəndələri, eləcə də əsas təhsil işəgötürənlərini təmsil edən məruzəçilər tərəfindən təqdim edilmişdir.

(Konfransa və bütün məruzəçilərə aid məlumatlar aşağıdakı keçirdlərdən əldə edilə bilər: http://www.european-agency.org/agency-projects/teacher-education-for-inclusion/dissemination-conference)

# PROFİLİN GƏLƏCƏKDƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

2010-cu ilin payızında Sürixdə keçirilən layihə iclasında çıxış edən əsas məruzəçi Toni But belə təklif vermişdir: “Pedaqoq kimi sahib olduğumuz güc digərlərinin dialoqa cəlb edilməsidir.”

Bu fikir bu Profil sənədinin niyyətlərini göstərir – başqaları ilə müzakirələr əsasında məşğul olmaq. Bununla yanaşı, Profilin özü və köməkçi müzakirə materiallarından inklüzivlik üzrə müəllimlərin hazırlanması işində milli, Avropa və hətta beynəlxalq səviyyədə müxtəlif yollarla istifadə ediləcəkdir. Qlobal səviyyədə inklüziv təcrübə üzrə potensialın yaradılması ilə bağlı ümumi narahatlıq mövcuddur. Layihənin hazırladığı Profil yalnız müəllimlər haqqında deyil, inklüziv təhsilin daha geniş məqsədi ilə bağlı müzakirələrin başlanmasına və ya daha da artırılmasına imkan yaradır.

Ancaq bu qısa sənədin, ölkə kontekstlərinə müəyyən bir şəkildə “nəql edilə biləcək” son məhsul olmadığını aydınlaşdırmaq lazımdır. Sənəd hökumət rəsmilərinin və müəllim hazırlığı aparan pedaqoqların daha aydın təsəvvürə malik olmaları üçün növbəti müzakirələri stimullaşdırmaq məqsədilə hazırlanmışdır. Profilin müəllif hüququ olmayan versiyasının olması bu məqsədə praktik olaraq dəstəkləmək cəhdi hesab edilir.

Bu sənəd çərçivəsində vurğulanmış müəllimlərin ilkin tədrisində effektivliyin nə olduğu ilə bağlı məsələlərin əksəriyyəti növbəti yoxlama tələb edir. Aşağıda nəzərdən keçirilmiş məsələlər *İnklüziv Müəllimlərin Profilinin* gələcək inkişafı ilə bağlı müzakirələr çərçivəsində əsas məsələ kimi nəzərdən keçirilmişdir:

I) İnklüziv mühitdə fəaliyyət göstərən müəllimlərin iş üçün necə təlimləndiyini sənədləşdirən hələ də çox məhdud tədqiqatlar vardır. Bu fakt “beynəlxalq təşkilatlarla birlikdə bilik bazasının genişləndirilməsi və tədqiqatların nəticələrinin daha geniş miqyasda yayılmasının təmin edilməsi” zərurətini əks etdirən Təhsil və Təlimin Sosial Aspektinə dair Şuranın Qətnamələrində (2010) qeyd olunur. (s. 9).

TE4I layihəsinin analitik hesabatında belə iddia irəli sürülür: “Tədrisə nail olmaq üçün müxtəlif yolların effektivliyi və bütün tədris müəssisələrinin müxtəlif ehtiyaclarını qarşılamaq məqsədilə müəllimlərin bacarıqlarını yaxşılaşdırmaq üçün kursun təşkili, məzmunu və pedaqogikası üzərində tədqiqat aparılmalıdır” (səh. 72).

Müəllim səriştələrinin profili - yanaşmalar, bilik və bacarıq – ilkin pedaqoji hazırlıq siyasəti və onun icrasının effektivliyinin gələcəkdə tədiqiqi üçün vacib sahə hesab olunur. 2011-ci il üçün birgə təhsil fəaliyyəti təklif edir ki, “... müəllimlərin bacarıqlarının çərçivəsi həll yolu deyil. Bu, müəllimlərin peşəkarlığını dəstəkləmək və təhsilin keyfiyyətini yüksəltmək üçün istifadə edilə biləcək bir sıra vasitələrdən biridir”(səh. 6). Gələcək tədqiqat spesifik İPT proqramı kontekstində, eləcə də geniş sistem perspektivlərindən Profilin sistematik qiymətləndirilməsinə xüsusi diqqət yönəldə bilər.

II) Bir çox ölkələr İPT-nin strukturunu nəzərdən keçirir və İPT-nin harada və kim tərəfindən verildiyini (universitetlər və/və ya məktəblər) nəzərə alınır. Kursun strukturu və tədrisin məzmunu da geniş şəkildə müzakirə olunur və təklif olunan dəyişikliklərin əksəriyyəti inklüziv yanaşmaya uyğun gəlir. İƏİT-in *Müəllimlərin Rolunun vacibliyinə dair* Hesabatında (2005) “ilkin müəllim hazırlığında dəyişikliklər müzakirə olunur” və təklif edilir ki: “Hər hansı ilkin müəllim hazırlığı proqramı, nə qədər yüksək keyfiyyətdə olsa da, tələbə müəllimləri tam şəkildə inkişaf etdirə bilməz ... müəllimlər üçün əsas və ya həqiqətən də yeganə ixtisas olmaq əvəzinə, o müəllimlərin davamlı inkişafı üçün başlanğıc nöqtəsi və platforma kimi nəzərdən keçirilməyə başlanmışdır” (səh. 134).

*İnklüziv Müəllimlərin Profili* ilkin pedaqoji hazırlığa dair müzakirələr nəticəsində hazırlanmışdır. Bununla yanaşı, TE4I layihəsinin iştirakçıları tərəfindən onun müəllimlərin gələcək və davamlı peşə inkişafı imkanlarının dəstəklənməsində potensial uzunmüddətli rolu vurğulanıb və müəllimin müxtəlif inkişaf imkanları üçün bir vasitə kimi Profilin təkmilləşdirilməsi müvafiq hesab edilir.

III) Şuranın Yekun Qərarları (2010) "təhsil və təlim sosial inteqrasiyanın və sosial müdafiə prosesinin məqsədlərinə nail olmaq üçün əsas vasitədir" (səh. 10). Bu, TE4I layihəsinin analitik hesabatında (2011) əks olunur: "Sosial ədalət və icmanın birliyi kimi digər prioritetlərlə əlaqəli olan inklüzivlik məsələsinin inkişafının faydaları uzunmüddətlidir və erkən uşaqlıq təhsilinə investisiya və İnklüziv təhsil sisteminin getdikcə daha da artması boşluqların qapadılması kimi qısa müddətli məqsədlərdən fərqli olaraq, resurslardan daha effektiv istifadəni göstərir (səh. 77).

*İnklüziv Müəllimlərin Profilinin* işlənib hazırlanması prosesi zamanı, layihə ekspertləri və ölkə üzrə maraqlı tərəflərin tez-tez təkrarladığı əsas mesaj müəllimlərin təlimləndirilməsinin təhsil sistemində dəyişikliklərin əldə edilməsi və inklüziv təhsilin təşviqində aparıcı rola malik olması potensialı ilə bağlı olmuşdur. Layihənin analitik hesabatında (2011) bu fikir bir daha dəstəklənir: "Məktəblərin müxtəlifliklərini qəbul etmək qabiliyyətinin artırılması üçün tədris və təlimdə islahatların aparılması və ətraf mühitə diqqətin artırılması artıq cəmiyyətdə geniş səviyyədə qəbul edilir." (səh. 14)

# İSTİNADLAR

Bergan, S. and Damian, R. (2010) *Higher education for modern societies: competences and values (Council of Europe higher education series No.15, 2010)*

*Booth, T. (2010) Teacher Education for Inclusion: How can we know it is of high quality? Keynote given at the Teacher Education for Inclusion project conference; Zurich, September 2010. Available on request from the Agency Secretariat secretariat@european-agency.org*

*Conclusions of the Council and of the Representatives of the Governments of the Member States, meeting within the Council, on improving the quality of teacher education (Official Journal (OJ) C 300, 12.12.2007)*

*Conclusions of the Council and of the Representatives of the Governments of the Member States, meeting within the Council of 21 November 2008 on preparing young people for the 21st century: an agenda for European cooperation on schools (OJ 2008/C 319/08)*

*Conclusions of the Council of 26 November 2009 on the professional development of teachers and school leaders (OJ 2009/C 000/09)*

*Conclusions of the Council of 12 May 2009 on a strategic framework for European cooperation in education and training ('ET 2020') (2009/C 119/02)*

*Conclusions of the Council on the social dimension of education and training. 3013th Education, Youth and Culture meeting, Brussels, 11 May 2010*

*Creswell, J.W. and Miller, D.L. (2000) Determining Validity in Qualitative Inquiry. Theory Into Practice, Volume 39, Number 3, Summer 2000, College of Education, The Ohio State University*

*Delors, J. et al. (1996) Learning, the treasure within. Report to UNESCO of the*

*International Commission on Education for the Twenty-first Century. Paris, France: UNESCO*

*Denzin, N. K. (1979) The research act: A theoretical introduction to sociological methods. New York: McGraw-Hill*

*European Agency for Development in Special Needs Education (2011) Teacher Education for Inclusion Across Europe – Challenges and Opportunities. Odense, Denmark: European Agency for Development in Special Needs Education*

*European Commission (2009) Strategic framework for education and training. Brussels:*

*European Commission.Electronic source available online at: http://ec.europa.eu/education/lifelong-learning-policy/doc28_en.htm*

*European Commission, DG-Education and Culture (2010) Improving Teacher Quality: the EU Agenda. Document prepared by Holdsworth, P., summarising the priorities for improving Teacher Education that were defined by Ministers of Education in the Council Conclusions of November 2007, 2008 and 2009*

*European Commission, DG Education and Culture (2011) Thematic Working Group 'Teacher Professional Development': Report of Peer Learning Activity: Policy Approaches to Defining and Describing Teacher Competences*

*Organisation for Economic Co-operation and Development (2005) Teachers Matter:*

*Attracting, Developing and Retaining Effective Teachers. Paris: OECD*

*Ouane, A. (2008) Creating education systems which offer opportunities for lifelong learning. Paper presented at UNESCO International Conference on Education 'Inclusive education: the way of the future' 48th session. Geneva, 25–28 November 2008*

*Recommendation of the European Parliament and of the Council of 18 December 2006 on key competences for lifelong learning (2006/962/EC)*

*Ryan, T.G. (2009) An analysis of pre-service teachers' perceptions of inclusion. Journal of Research in Special Education Needs, 9 (3), 180-187*

*Shulman, L. (2007) Keynote lecture to American Association of Colleges for Teacher Education Annual Conference. New Orleans, February 2007*

*United Nations (ed.) (2006) Convention on the Rights of Persons with Disabilities. New York: United Nations*

*Towards shared descriptors for Bachelors and Masters, A report from a Joint Quality Initiative informal group, December 2003. Electronic source available online: http://www.verbundprojekt-niedersachsen.uni-oldenburg.de/download/Dokumente/ Studium_Lehre/share_%20descriptorsbama.pdf*

*United Nations Education Science and Culture Organization (UNESCO) (2009) Policy Guidelines on Inclusion in Education, Paris: UNESCO*

*UNESCO-IBE (2008) Conclusions and recommendations of the 48th session of the International Conference on Education. Geneva, Switzerland. UNESCO IBE.ED/BIE/ CONFINTED 48/5*

*UNICEF and UNESCO (2007) A Human Rights-Based Approach to Education for All: A framework for the realization of children's right to education and rights within education. UNICEF, New York and UNESCO, Paris*

*World Health Organisation (2011) World Report on Disability. Geneva: Switzerland. WHO*

# ƏLAVƏ 1 – ÖLKƏLƏRDƏ İPT ÇƏRÇİVƏSİNDƏ SƏRİŞTƏLƏRDƏN İSTİFADƏ

| Ölkə | Milli səviyyədə təsvir olunan / İPT-də istifadə olunan səriştələr | Səriştələr inklüziv təhsili əhatə edir |
|---|---|---|
| Avstriya | Qanunvericilikdə göstərilir ki, bütün kurslar bacarıqlardan istifadə etməlidir.<br>Ali təhsil müəssisəsi tərəfindən təyin olunur | Bəli |
| Belçika (flamand dilində danışan icma) | İbtidai və orta təhsil məktəbləri üçün müəllimlər səriştələrinin çərçivəsi (2007) | Bəli, bərabər imkanlar baxımından |
| Belçika (fransızca danışan icma) | Heç bir | Xeyr |
| Kipr | Xeyr. Ali təhsil müəssisəsi məzmunu müəyyən edir | Bəzi müvafiq icbari kurslar və fakültətiv modullar |
| Çexiya Respublikası | Ümumi standartlar və əsas səriştələr qanunvericiliyə əsaslanan müəllimin minimum peşə ixtisasına əsaslanaraq hazırlanır<br>(Ali təhsil müəssisələri akkreditasiya Şurasının tələblərindən fərqlənir) | İnklüziv təcrübə üçün bazanı müəyyən edir |
| Danimarka | İPT tələbələri üçün səriştələr qanunvericiliklə müəyyən edilir (11 may 2009-cu il, № 408) | Xüsusi təhsil sahəsində səriştələr |
| Estoniya | Müəllimlərin Peşə Standartı (2005 və 2006) və müəllim təhsili strategiyası 2009-2013 | Ölkə hesabatında göstərilən beş müvafiq sahə |
| Finlandiya | Mərkəzi deyil, milli səviyyədə müəyyən edilən qaydalar | Bütün müəllim təhsilində əsas xüsusi ehtiyacların tədqiqi |
| Fransa | Müəllimlər üçün mərkəzi səviyyədə 10 bacarıq müəyyən edilib | O cümlədən şagird müxtəlifliyinin nəzərə alınması |
| Almaniya | Standartlar 2004-cü ildə Nazirlərin Daimi konfransında müəyyən edilib Strategiya Sənədi 2010 | İPT-nin bir hissəsi kimi xüsusi təhsilin inkişaf etdirilməsi |
| Macarıstan | Müəyyən edilmiş standartlar və əsas bacarıqlar | Fərdi tələblərə uyğunlaşma daxildir |
| İslandiya | Mərkəzi tələblər, lakin qərarlar yerli səviyyədə qəbul edilir | Bəzi məzmun inteqrasiya olunmuş, bəzi mütəxəssislər |
| İrlandiya | Tədris Şurası tələb olunan təlim nəticələrini müəyyən edir | Bəli |
| Latviya | Təkmilləşdirilən standartlar / səriştələr – Həmkarlar məzmunu müəyyən edir | Xüsusi təhsilə giriş, bəzi məzmunlarla əlaqədar münasibətlər |
| Litva | Müəllim Peşəsinə dair Bacarıqların Profili və Müəllim Təlimi Standartları | Bəli – məzmun kollecdən asılı olaraq dəyişir |

| | | |
|---|---|---|
| Lüksemburq | Nazirliyin təyin etdiyi məzmun.<br>Ümumi təhsil səriştələri baxımından yanaşma | İnklüzivlik ibtidai kurslarda əhatə edilir – orta təhsildə azdır |
| Malta | Səriştələr ilk olaraq təyin olunur | Bəli |
| Niderland | Səriştələr və peşəkar rollar təsvir edilmişdir. Məzmun ali təhsil müəssisələri tərəfindən hazırlanır | Xüsusi təhsilə giriş ibtidai kurslarda əhatə edilir |
| Norveç | Müəllimlər üçün təlim nəticələri Milli kurrikulum qaydaları göstərilir | Bəli |
| Polşa | Müəllim şuraları tərəfindən seçilmiş komandaların müəyyən etdiyi ümumi bacarıqlar | Spesifik olaraq təsvir olunmur, lakin kurslar getdikcə müvafiq məzmunu daha çox əhatə edir |
| Portuqaliya | Ümumi bacarıqlar qanunvericiliklə müəyyən edilir, lakin ali təhsil müəssisələri necə yığışmaq qərarında sərbəstdirlər | İnklüziv təcrübə ilə bağlı əsas bəndləri özündə əks etdirir |
| Sloveniya | Ali təhsil müəssisələri tərəfindən qərar verilir | Bəli – Post Bolonya yeni proqramlarında bəziləri |
| İspaniya | Mərkəzi səviyyədə təyin edilir (2007) | Bəli, lakin spesifik olaraq – xüsusi təhsil əsas təlimdə kursuna “fənn” kimi daxil edilib |
| İsveç | Mərkəzi səviyyədə təyin edilmir | Bəli |
| İsveçrə | Ali təhsil müəssisələri tərəfindən istifadə edilir | Təxminən 5% kurs |
| Birləşmiş Krallıq (İngiltərə) | Müəllim İnkişafı Agentliyinin standartları.<br>Standartların icrası ali təhsil müəssisələrindən asılıdır | Bəli – əksər xüsusi təhsil modulları mövcuddur |
| Birləşmiş Krallıq (Şimali İrlandiya) | Müəllim Şurası müəllimlik səriştələrini müəyyən edir (2007) | Bəli |
| Birləşmiş Krallıq (Şotlandiya) | Şotlandiyanın Ümumi Tədris Şurası standartları müəyyən edir<br>Ali təhsil müəssisələri məzmunu müəyyən edir | Bəli – İnklüzivlik üzrə Milli Çərçivə (http://www.frameworkforinclusion.org/) bütün səviyyələrdə müəllim təhsili standartları inklüziv təhsilə hüquqa əsaslanan yanaşmalar və sosial ədalətlə əlaqələndirilir (http://www.frameworkforinclusion.org/) və hamı üçün bacarıqların inkişafını təşviq edən tədris və təlim strategiyalarını təşviq edir |
| Birləşmiş Krallıq (Uels) | Uels Məclisi Hökuməti - standartlar Böyük Britaniya (İngiltərə) | Bəli |

# ƏLAVƏ 2 – MÜƏLLİMLƏRİN KEYFİYYƏTİNİN ARTIRILMASI: AVROPA BİRLİYİNİN SİYASƏT GÜNDƏLİYİ

Bu qısa sənəd 2010-cu ildə Paul Holdsvors, Avropa Komissiyası, Avropa Komissiyasının Təhsil və Mədəniyyət üzrə Baş Direktorluğu tərəfindən **İnklüziya üzrə müəllim hazırlığına** dair layihəsinin müzakirələrinə töhfə olaraq hazırlanmışdır. Bu qeyddə Təhsil Nazirləri tərəfindən Şuranın qərarlarına dair üç əsas sənəddə müəyyən edilən Müəllim Hazırlığının təkmilləşdirilməsi ilə bağlı prioritetlər xülasə şəklində verilir:

Şuranın qərarı və Üzv Dövlətlərin Hökumətlərinin Nümayəndələri, Şura tərkibində görüş, *müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi barədə* (Rəsmi Jurnal, C 300, 12.12.2007). (Aşağıdakı siyahıda '07')

21-ci əsr üçün gənclərin hazırlanması ilə bağlı Şuranın 21 noyabr 2008-ci il tarixli iclası, Şuranın və Üzv Dövlətlərin Hökümətlərinin Nümayəndələrinin qərarları: Avropada məktəblərdə əməkdaşlıq üçün proqram (OJ 2008 / C 319/08) (Aşağıdakı siyahıda '08')

Müəllimlərin və məktəb rəhbərlərinin peşəkar inkişafına dair Şuranın 26 noyabr 2009-cu il tarixli iclası, Şuranın və Üzv Dövlətlərin Hökümətlərinin Nümayəndələrinin qərarları (OJ 2009 / C 000/09) (Aşağıdakı siyahıda '09')

**1. Peşə dəyərlərinin və münasibətlərin təbliğ olunması**
- Refleksiya mədəniyyətini təbliğ etmək (07)
- Müstəqil təhsilalan müəllimlər (07)
- Müəllimlər tədqiqat aparırlar, (07) yeni biliklər hazırlayır (07), innovasiyalar edirlər (07)
- Müəllimlər məktəbin inkişafında iştirak edirlər (07)
- Müəllimlər həmkarları, valideynləri və s. ilə əməkdaşlıq edirlər (07)
- Üzv dövlətlər müəllimlərin öyrənmə qabiliyyətini əhəmiyyətli dərəcədə artırır, və bununla da istisnaya deyil, normaya çevrilir (08) (09)

**2. Müəllimlərin bacarıqlarının təkmilləşdirilməsi**
- Müəllimlərin mövzu ilə bağlı mütəxəssis bilikləri var (07) və aşağıdakıları bacarırlar:
- Zəruri pedaqoji bacarıqları var (07), məsələn:
- Heterogen siniflərdə tədris (07)
- İKT-dən istifadə (07)
- Çarpaz bacarıqların tədrisi (07)
- Təhlükəsiz cəlbedici məktəblərin yaradılması (07)

**3. Təhsil keyfiyyətinin yüksəldilməsi üçün effektiv işəgötürmə və seçim (09)**
- Üzv dövlətlərin ən yaxşı namizədləri cəlb etməsi və işdə saxlaması (09)
- Üzv dövlətlərin öz işə qəbul, yerləşdirmə, saxlama, mobillik siyasətlərini nəzərdən keçirməsi (08)
- Üzv dövlətlərin müəllimliyi cəlbedici bir karyera (07) / peşə (08) kimi təşviq etməsi

**4. İlkin pedaqoji təhsilin keyfiyyətinin artırılması**
- Müəllimlik karyerası üçün ixtisas dərəcəsi tələb olunur (07); müəllim olmaq üçün tələb olunan səviyyənin yüksəldilməsi nəzərdən keçirilir (07)

- İPT ixtisasları tədqiqata əsaslanan təhsili və tədris təcrübələrini balanslaşdırılır (07)
- Müəllim kimi ixtisaslaşmaq üçün tələb olunan praktiki təcrübənin dərəcəsinin artırılması nəzərdən keçirilir (07)
- Üzv dövlətlər müəllimlərin öyrənmə mobilliyini əhəmiyyətli dərəcədə artırır və bunu istisnaya deyil, normaya çevirir (08) (09)

**5. Bütün yeni müəllimlər üçün təlim proqramlarını tətbiqi**
- Bütün yeni müəllimlər üçün peşə və şəxsi dəstəyin təmin edilməsi (09) (08)

**6. Bütün müəllimlərə mentorluq dəstəyinin verilməsi**
- Karyera boyunca mövcud mentorluq dəstəyinin verilməsi (07)
- Müəllimlərə effektiv fəaliyyət üçün lazımi dəstəyin verilməsi (09)

**7. Davamlı peşəkar inkişafın keyfiyyət və kəmiyyət baxımından təkmilləşdirilməsi**
- Müəllimlər özünü qiymətləndirmə/kənar qiymətləndirmə vasitəsi ilə fərdi inkişaf ehtiyaclarını müntəzəm olaraq nəzərdən keçirirlər (07) (09)
- Fasiləsiz peşəkar inkişafın keyfiyyətinin təmin edilməsi
- Təchizat/çeşidin artırılması: formal, qeyri-formal, mübadilə, yerləşdirmə (07)
- Fasiləsiz peşəkar inkişafın artırılması (07)
- Üzv dövlətlər müəllimlərin öyrənmə mobilliyini əhəmiyyətli dərəcədə artırır və bunu istisna hala deyil, normaya çevirir (08) (09)

**8. Məktəb rəhbərliyi**
- İşəgötürmənin  təkmilləşdirilməsi (08)
- Təlim və inkişafın, tədris bacarıqlarının, tədris təcrübəsinin təkmilləşdirilməsi (07) (08)
- İdarəetmə, rəhbərlik (07) (08)
- Yüksək keyfiyyətli təlimlərin təmin edilməsi (09)
- İnzibati yükün yüngülləşdirilməsi; tədris və təhsilin formalaşdırılmasına xüsusi diqqət verilməsi (09)

**9. Müəllim hazırlığı aparan pedaqoqların keyfiyyətinin təmin edilməsi**
- Yüksək akademik standartlara malik olmalı (09)
- Yüksək praktiki tədris təcrübəsinə malik olmalı (09)
- Yaxşı tədris bacarıqları olmalı (09)

**10. Müəllim hazırlığı sistemlərinin təkmilləşdirilməsi**
- İlkin pedaqoji təhsil, müəllimlik fəaliyyətinə başlama və fasiləsiz peşəkar inkişaf əlaqələndirilməli və bir- birini tamamlamalı (07)
- Sistemlər müvafiq qaydada resurslarla təchiz edilməli və keyfiyyətə təminat verilməli (07)
- Artan təhsil ehtiyaclarına cavab vermək üçün müəllim hazırlığı kursları açılmalı (07)/yeni tələblərə innovativ cavabların verilməsi (07)
- Təhsil müəssisələri/məktəblər arasında əməkdaşlığın inkişaf etdirilməsi (07)
- Məktəblərin "təhsil mərkəzləri" kimi inkişaf etdilməsi (07)

# ƏLAVƏ 3 – PROFİL SƏNƏDİNİN MÜZAKİRƏLƏRİ: İNFORMASİYA TOPLAMAQ ÜÇÜN ŞABLON FORMA

"İnklüzivlik üzrə Müəllimlərin Təhsili" layihəsi çərçivəsində hazırlanmış *İnklüziv Müəllimlərin Profili* sənədinin məqsədi sinifdə olan bütün təhsil alanların ehtiyaclarının ödənilməsində BÜTÜN müəllimlər üçün lazım olan razılaşdırılmış səriştə sahələrini təqdim etməkdir.

Profil sənədində profilin inkişafına yönəldilən yanaşmanın əsaslandırılması təmin edilir və müəllimlərin ilkin təhsilində "səriştələr" yanaşmasının tətbiqi ilə bağlı əsas məsələlər əks olunur.

Bu şablon forma müzakirələrin əsas məqamlarını qeyd etmək üçün bütün iştirakçılar tərəfindən istifadə olunmalıdır. Xahiş edirik hər bir təkliflə razılaşdığını / razılaşmadığını bildirərək töhfəsini verən maraqlı tərəflərin rolunu qeyd edin (məs. şagird / valideyn / müəllim və s.).

**Bu şablon formadan istifadə edilməklə edilən qeydlər ölkə üzrə tanışlıq səfərinin sonunda toplanacaqdır.**

1. Hazırlanmış **model** və xüsusilə də Profilin əsasını təşkil edən dörd əsas dəyərlər - təhsilalanların müxtəlifliyinin qiymətləndirilməsi, bütün təhsilalanların dəstəklənməsi, başqaları ilə birgə iş və şəxsi peşə inkişafı - barədə razılaşma varmı?
2. Profil sənədində göstərilən ümumi prinsiplər barədə razılıq varmı?
3. Profil sənədində göstərilən bacarıq sahələri barədə maraqlı tərəflər razılaşırlarmı?
4. Maraqlı tərəflərin rolunu vurğulayaraq sənədin tətbiqinin təsirləri ilə bağlı hər hansı şərh və ya təklifləri qeyd edin.
5. Maraqlı tərəflərin əlavə etmək və ya çıxartmaq istədiyi nəsə varmı?

(Qeyd: Şərhlər və təklif olunan dəyişikliklər Profil sənədinin surətində qeyd edilə bilər – xahiş olunur təklifi verən şəxsin vəzifəsini qeyd edin).

# TÖHFƏ VERƏN ŞƏXSLƏRİN SİYAHISI

| Ölkə | Təyin olunmuş layihə eksperti | E-mail ünvanı |
|---|---|---|
| Avstriya | Cənab Ivo Brunner | ivo.brunner@ph-vorarlberg.ac.at |
| | Cənab Ewald Feyerer | ewald.feyerer@ph-ooe.at |
| Belçika (flamand dilində danışan icma) | Xanım Annet de Vroey | annet.de.vroey@khleuven.be |
| Belçika (fransızca danışan icma | Cənab Jean-Claude De Vreese | jean-claude.devreese@cfwb.be |
| Kipr | Xanım Elli Hadjigeorgiou | hadjigeorgiou.e@cyearn.pi.ac.cy |
| | Xanım Simoni Symeonidou | symeonidou.simoni@ucy.ac.cy |
| Çex Respublikası | Xanım Kateřina Vitásková | katerina.vitaskova@upol.cz |
| | Xanım Miroslava Salavcová | Miroslava.Salavcova@msmt.cz |
| Danimarka | Xanım Bodil Gaarsmand | bgaa@ucsyd.dk |
| | Cənab Nils-Georg Lundberg | ngl@ucn.dk |
| Estoniya | Xanım Vilja Saluveer | vilja.saluveer@hm.ee |
| | Xanım Karmen Trasberg | karmen.trasberg@ut.ee |
| Finlandiya | Xanım Suvi Lakkala | suvi.lakkala@ulapland.fi |
| | Xanım Helena Thuneberg | helena.thuneberg@helsinki.fi |
| Fransa | Xanım Nathalie Lewi-Dumont | nathalielewi@gmail.com |
| | Xanım Catherine Dorison | catherine.dorison@iufm.u-cergy.fr |
| Almaniya | Cənab Thomas Franzkowiak | franzkowiak@paedagogik.uni-siegen.de |
| | Xanım Kerstin Merz-Atalik | merz-atalik@ph-ludwigsburg.de |
| Macarıstan | Xanım Csilla Stéger | csilla.steger@okm.gov.hu |
| | Cənab Iván Falus | falusivan@gmail.com |
| İslandiya | Xanım Hafdís Guðjónsdóttir | hafdgud@hi.is |
| | Xanım Jóhanna Karlsdóttir | johannak@hi.is |
| İrlandiya | Cənab Alan Sayles | Alan_Sayles@education.gov.ie |
| | Xanım Áine Lawlor | aine.lawlor@teachingcouncil.ie |

| | | |
|---|---|---|
| Latviya | Xanım Guntra Kaufmane | guntra.kaufmane@visc.gov.lv |
| | Xanım Sarmīte Tūbele | sarmite.tubele@lu.lv |
| Litva | Cənab Giedrius Vaidelis | giedrius.vaidelis@upc.smm.lt |
| | Xanım Lina Milteniene | m.lina@cr.su.lt |
| Lüksemburq | Cənab Alain Adams | alain.adams@education.lu |
| Malta | Xanım Felicienne Mallia Borg | felicienne.mallia.borg@ilearn.edu.mt |
| | Cənab Paul Bartolo | paul.a.bartolo@um.edu.mt |
| Niderland | Cənab Frank Jansma | F.Jansma@Lerarenweb.nl |
| | Cənab Dominique Hoozemans | hoozemans.d@hsleiden.nl |
| Norveç | Xanım Toril Fiva | Toril.Fiva@kd.dep.no |
| | Xanım Unni Vere Midthassel | unni.midthassel@uis.no |
| Polşa | Xanım Agnieszka Wołowicz | agnieszka.wolowicz@onet.eu |
| | Xanım Beata Rola | beata.rola@mscdn.edu.pl |
| Portuqaliya | Xanım Maria Manuela Micaelo | manuela.micaelo@dgidc.min-edu.pt |
| | Xanım Maria Manuela Sanches Ferreira | manuelaferreira@ese.ipp.pt |
| Sloveniya | Xanım Damjana Kogovšek | damjana.kogovsek@pef.uni-lj.si |
| İspaniya | Xanım Pilar Pérez Esteve | pilar.pereze@educacion.es |
| | Cənab Gerardo Echeita Sarrionandia | gerardo.echeita@uam.es |
| İsveç | Cənab Bengt Persson | bengt.persson@hb.se |
| İsveçrə | Cənab Pierre-André Doudin | pierre-andre.doudin@hepl.ch |
| | Cənab Reto Luder | reto.luder@phzh.ch |
| Birləşmiş Krallıq (İngiltərə) | Cənab Brahm Norwich | B.Norwich@exeter.ac.uk |
| | Cənab John Cornwall | john.cornwall@canterbury.ac.uk |
| Birləşmiş Krallıq (Şimali İrlandiya) | Cənab John Anderson | john.anderson@deni.gov.uk |
| | Cənab Martin Hagan | m.hagan@stmarys-belfast.ac.uk |
| Birləşmiş Krallıq (Şotlandiya) | Xanım Lani Florian | l.florian@abdn.ac.uk |
| Birləşmiş Krallıq (Uels) | Xanım Sue Davies | s.davies@tsd.ac.uk |

Agentlik aşağıdakı ölkələrin öz töhfələrini verən ekspertlərinə minnətdarlığını bildirir: Xanım. Iva Strnadová və Radka Topinkova (Çexiya), Marita Mäkinen (Finlandiya); Cənab Pierre Francois Gachet (Fransa); Xanım Joëlle Renoir və cənab Marco Suman (Lüksemburq); Cənab Jos Louwe və cənab Rutger Stafleu (Hollandiya); Xanım Marit Strømstad (Norveç); Xanım Kerstin Hultqren (İsveç); Cənab Huw Roberts və cənab Cliff Warwick (Birləşmiş Krallıq, Uels).

2 Mart 2012-ci il tarixində Brüssel məlumatlandırma konfransında iştirak edən məruzəçilərə töhfələrinə görə təşəkkür edilir: Tony Booth (Birləşmiş Krallıq, İngiltərə); Xanım Therese Tchombe (YUNESKO-nun Xüsusi Təhsil İhtiyaçları / İnkişafı üzrə sədri, Kamerun); Xanım Paula Hunt (UNICEF-in Orta Şərq şöbəsi / MDB üçün); Xanım Micheline Sciberras (Təhsil Nazirliyi, Malta); Cənab Gisle Larsen (Norveç); Anete Gutmane (Latviya).

Agentlik, layihənin Xarici Məsləhətçisi və Layihə Məsləhətçi Qrupunun üzvlərinə göstərdikləri dəstəyə görə xüsusilə təşəkkür edir: Bernadette Céleste (Fransa); Cənab Don Mahon (İrlandiya); Mudit Reigase xanım (Latviya); Ms Irene Moser (Avstriya - Sentyabr 2010-a qədər qrup üzvü); Cənab Renato Opertti (UNESCO IBE); Cənab Paul Holdsworth (Avropa Komissiyası, DG-EAC).

QEYDLƏR

# QEYDLƏR

Kitab **"İdeal Print"** mətbəəsində
çap olunub.
Telefonlar: 012 341 94 74
051 250 86 50

Çapa imzalanıb: 01.11.2019
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 6
Sifariş № 323

İnklüziv Müəllimlərin Profilinə dair bu sənəd Xüsusi təhsilin inkişafı üzrə Avropa Agentliyi tərəfindən həyata keçirilən İnklüziya üzrə müəllim hazırlığı (TE4I) layihəsinin əsas nəticələrindən biri kimi hazırlanmışdır. İlkin Pedaqoji Təhsil (İPT) alan tələbələrin istifadə üçün nəzərdə tutulan TE4I sənədi layihənin analitik hesabatının əsas tövsiyəsidir; Profil sənədi bu analitik hesabatda təqdim olunan bu və ya digər tapıntılar üzərində qurulur və onları əgər inklüziv siniflərdə effektiv olmaq istəyirlərsə, bütün müəllimlər üçün zəruri olan dəyərlər və bacarıq sahələrinin çərçivəsi ilə əlaqələndirir.

Profil sənədində İPT proqramları çərçivəsində hansı lazımi dəyərlərin və bacarıq sahələrinin inkişaf etdirilməli olduğu haqqında məlumat verilir. Ancaq sənəddə bu bacarıq sahələrinin ilkin müəllim təhsilinə dair müxtəlif ölkələrin proqramlarında necə istifadə edilməsi təsvir olunmur. Tətbiq ilə bağlı bəzi əsas məsələlər bu sənədin sonrakı bölməsində nəzərdə tutulsa da, Profil sənədi hər bir ölkənin İPT sisteminin fərqli konkeksti çərçivəsinə uyğun olan qaydada araşdırılacaq və inkişaf etdiriləcək alət kimi hazırlanmışdır.

Bu sənəd üçün əsas hədəf auditoriyalar inklüziya üzrə müəllimlərin təhsili siyasətinə təsir göstərmək, daha sonra həmin dəyişiklikləri praktikada tətbiq etmək mövqeyində olan müəllim hazırlayan pedaqoqlar və qərar qəbul edənlər – İPT üzrə menecer və bu sahədə siyasəti müəyyən edən müvafiq dövlət orqanlarının vəzifəli şəxsləridir. İPT üzrə bu maraqlı tərəflər əsas hədəf auditoriyası hesab edilir, çünki TE4I layihəsində də təsdiq edildiyi kimi, müəllim hazırlığı inklüziv təhsil üzrə ümumilikdə daha geniş sistemli dəyişikliklər üçün vacib təsir nöqtəsidir.